www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 yanvar 2017-ci il Cümə № 1 (6615) Qiymәti 60 qәpik

**Xəbər**

**Bayramın dəhşət statistikası: 11 nəfər dəm qazından, 20 nəfər yol qəzasında ölüb**

yazısı səh.10-da

**Gündəm**

### Ermənistanın cəsəddən düzəltdiyi çirkin oyun - XİN-dən sərt reaksiya


Çingiz Qurbanov

Bir həftədən artıq vaxt keçsə də, İrəvan ordumuzun əsgərinin cəsədini geri vermir; **Hikmət Hacıyev:** "Ermənistan təhlükəli bir..."

yazısı səh.6-da

### Cəbrayıllı köçkünlər 5 nəfərin azadlığı üçün prezidentə müraciət etdi

yazısı səh.3-də

### İŞİD Azərbaycana Avropadan sıza bilər

yazısı səh.9-da

### Xoruz ili dollara düşərli oldu, manat isə yenə ucuzlaşdı

yazısı səh.12-də

### Türkiyə Qafqazda fəallaşır-Rusiya narahatdır

yazısı səh.7-də

### Sərhədyanı bölgələrin əhalisi ərzağa görə İrana axışır

yazısı səh.12-də

### Böhran və...bayramda dolub-daşan əyləncə məkanları - nonses

yazısı səh.13-də

### Horadiz əməliyyatının 24 il saxlanan gizlinləri

yazısı səh.11-də

### Deputatlara "Ağ şəhər"dən mənzil verilməsi xəbəri yalan çıxdı

yazısı səh.3-də

### "Quş qripi" yenidən qayıdır

yazısı səh.14-də

### "Maqnit"in sahibi MTN-də "yüklənməsi"ndən danışdı

yazısı səh.5-də

### Trampın inauqurasiyasına Azərbaycandan kimlər gedəcək?

yazısı səh.3-də

## İrəvanın təbliğat maşınına növbəti zərbə

# SƏRKİSYAN ÜÇÜN YENİ İL ŞOKU - DAHA BİR ERMƏNİ AİLƏSİ BAKIYA GƏLİR

Bakı Sülh Platformasına qoşulanların sayı bu il daha sürətlə artacaq, çünki...; Ermənistan rəhbərliyinin seçki təbliğatı da fiasko ola bilər; Tamilla Arzumanyan: "İrəvanda hamı yaşamaq uğrunda mübarizə aparır..."




yazısı səh.8-də

## "Lənkəranski"nin qətli - "Ded Xasan"ın, yoxsa "göyərti kralı"nın intiqamı?

""Lənkəranski"ni mən öldürtmüşəm" deyən "Rəşad Gəncinski"yə "qanuni oğru" adını "Ded Xasan"ın yaxın qohumu veribmiş...

yazısı səh.10-da


Fikrət Yusifov

### Sabiq nazirdən Bakıya ərəb axını ilə bağlı ilginc iddia

yazısı səh.9-da


Bədrəddin Hassun

### QMİ Suriya müftisinin Qarabağ sayıqlamasına cavab verir

yazısı səh.6-da



### İstanbul terroru ilə bağlı yeni sensasion iddialar

yazısı səh.4-də



# Prezident pravoslav xristian icmasını təbrik etdi

**Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrik edib. APA-nın məlumatına görə, dövlət başçısının təbrikində deyilir:**

"Hörmətli həmvətənlər! Sizi, Azərbaycanın xristian icmasını İsa Peyğəmbərin mübarək mövludu - Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Xristianlıq Azərbaycanda çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz bizim ölkəmizdə təşəkkül tapıb. Səmavi dinlər burada əsrlər boyu dinc yanaşı fəaliyyət göstərərək, insanlar arasında əmin-amanlığın, dostluq və qardaşlıq münasibətlərinin yaranmasında misilsiz tarixi rol oynayıb. Azərbaycanda məskunlaşmış xalqlar və etnoslar arasında heç vaxt milli-irqi ayrı-seçkilik, etnik-dini dözümsüzlük halları mövcud olmayıb.

Müstəqil Azərbaycan Respublikası bu gün də öz tolerantlıq və multikulturalizm ənənələrinə sadiqdir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları beynəlxalq prinsiplərə əsaslanan hüquq və azadlıqlara, o cümlədən, vicdan və dini etiqad azadlığına malikdir. Ölkəmizdə yaşayan bütün etnik azlıqlara öz dini-mənəvi dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün bərabər demokratik şərait yaradılıb.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxkonfessiyalı və çoxmillətli Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması həmişə olduğu kimi, bu gün də, sabah da ölkəmizin tərəqqisi və inkişafı naminə öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirəcək.

Əziz dostlar! Şəfqət və mərhəmət duyğularının, təmiz və nəcib idealların rəmzi olan müqəddəs Milad bayramı münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram. Bayramınız mübarək olsun!".




# İki bankir Beynəlxalq Bankın rəhbərliyinə gətirilir

**"Bank Respublika"nın İdarə Heyətinin sədr müavini Aqşin Əmirov " Beynəlxalq Bankın rəhbərliyinə gətirilir. Bu barədə "APA-Economics"ə bank sektorundakı mənbə bildirib.**

Məlumata görə, A. Əmirovun ABB-nin İdarə Heyətinin sədr müavini vəzifəsinə təyinat alacağı gözlənilir.

Mənbə əlavə edib ki, A. Əmirovla yanaşı dövlət bankının İdarə Heyəti sədrinin müavini vəzifəsinə "Bank of Baku"nun İdarə Heyətinin sədri Abbas İbrahimov da gətiriləcək.

"Hər iki şəxs artıq bir müddətdir ABB-də təhvil-təslim işləri ilə məşğuldur. Hələlik rəsmi təyinat yoxdur. Lakin yaxınlarda bununla bağlı ictimaiyyətə ətraflı məlumat veriləcək", - deyə həmsöhbətimiz bildirib.

Xatırladaq ki, dekabr ayında ABB-nin İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti icrası Xalid Əhədova həvalə olunub.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# İlqar Məmmədova növbəti dəstək

## Vəfa Məmmədova: "Bu il ümid edirəm ki, düşərli olacaq"



**Son illərdə ənənə halını alan əfv sərəncamı Yeni ildə imzalanmadı. Bununla belə, 2017-ci ildən gözləntilər yüksəkdir. Bu ilin ya martında, ya da may ayında sərəncamın veriləcəyi və barələrində məhkəmə qərarları olan siyasi məhbusların azad olunacağı deyilir.**

Hazırda əsas gündəmdə olan məsələlərdən biri də REAL sədri İlqar Məmmədovun məhbəsdə saxlanılmasıdır. Hərəkat rəhbərinin azad olunması ilə bağlı beynəlxalq aləmin Azərbaycan hökumətinə olan təzyiqləri də səngimir.

**Son olaraq, ABŞ-ın BMT-dəki səfiri Samantha Power Yeni ildə "İlqar Məmmədova azadlıq!" adlı videomüraciət yayıb. Videoda deyilir ki, Azərbaycanın müxalif liderlərindən olan İlqar Məmmədov hökumətin nümayişlər və ictimai narazılıqlarla bağlı rəftarını tənqid etdikdən sonra 7 il həbsə məhkum edilib:** "Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycan hökumətinin İlqar Məmmədovu həbs etməklə fundamental insan haqlarını pozduğunu müəyyən edib".

**Müraciətdə İ.Məmmədovun həyat yoldaşının bu sözləri də əksini tapıb:** "Ailəmizdə ənənə var. Hər Yeni ildə yolkanı qızımız və İlqarla birgə bəzəyirik. Artıq neçə ildir qızımız yolkanı bəzəməkdən imtina edir, çünki bunu atasız etmək istəmir".

**REAL sədrinin həyat yoldaşı "Yeni Müsavat"a açıqlamasında 2017-ci ilə ümid etdiklərini dilə gətirdi:** "ABŞ-ın BMT-dəki səfiri videorolikdə digər ölkələrdən olan siyasi məhbuslar kimi İlqarı da dəstəkləyib. Bu il ümid edirəm ki, düşərli olacaq. İnşallah, hisslərim məni aldatmaz. Həbsxanada İlqar necə bayram keçirə bilər ki? Adi gün kimi bayramı keçib. Sonuncu dəfə onunla bayramdan öncə görüşmüşük".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı Yeni ildə əfv sərəncamı gözləsələr də, bunun olmadığına təəssüfləndiklərini dilə gətirdi:** "Biz əfvin nədən verilməməsinin sadəcə səbəblərini araşdırdıq. Bu gün düşünürük ki, doğrudan əfvin verilməsinə böyük ehtiyac var. O zamanı yenə də gözləyirik. Yaxın vaxtlarda bunun baş tutacağına çox ümid edirik. ABŞ-ın BMT-dəki səfirinin dediklərindən asılı olmayaraq, İlqar Məmmədovun məsələsi gündəmdədir. Mənə elə gəlir ki, əfv sərəncamı verilərsə, onun adı siyahıda olacaq. Novruza qədər bu sərəncamın imzalanacağına çox ümidliyik. Qərar yubanmayacaq".

**Hüquq müdafiəçisi İ.Məmmədov və digər siyasilərin həbsdə qalmalarının Azərbaycanla Qərb arasında növbəti dəfə münasibətləri soyuqlaşdıra biləcəyi ehtimallarından da söz açdı:** "Heç istəməzdim ki, belə olsun. Ölkəmizə qarşı sanksiyaların tətbiqini indiki iqtisadi və sosial durumun ağır olduğu bir vaxtda kimsə istəmir. Bunun üçün gözləntilərimiz yüksəkdir. Təzyiqlər üçün əsasların yaranmaması istiqamətində addımların atılması çox vacibdir. Gözləsək ki, bu təzyiqlərin hesabına vəziyyətimiz yaxşılaşacaq, əsla buna inanmıram. Təzyiqlərdən daha çox bizə dost sözü lazımdır. Demokratiyanın keşiyində duran insanlarımızın azadlıqda olmaları hamımız üçün vacib olmalıdır".

Xatırladaq ki, sonuncu dəfə əfv sərəncamı ötən ilin martında verilib. Həmin sərəncamla çoxsaylı siyasi məhbuslar azadlığına qovuşub.

❑ **Cavanşir ABBASLI**

# Bakıda avtobuslar xüsusi zolaq üzrə hərəkət edəcəklər

**Bakı Nəqliyyat Agentliyinin (BNA) təşəbbüsü ilə paytaxtın küçə və prospektlərində sərnişin avtobusları üçün xüsusi hərəkət zolaqları təşkil ediləcək. ("Report"). BNA-dan verilən məlumata görə, məqsəd Bakıda müntəzəm sərnişindaşımalarda təhlükəsizliyin və rahatlığın təmin edilməsi, o cümlədən əhalinin ictimai nəqliyyatdan istifadəsinin stimullaşdırılmasıdır.**

"Bakı Nəqliyyat Agentliyinin ümumi istifadədə olan nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının təşkil edilməsi barədə təklifi Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası tərəfindən məqbul hesab edilib. İlkin olaraq Babək, Xocalı, Nobel, Gəncə prospektlərində, M.Useynov, Ə.Rəcəbli, M.Füzuli (Qış parkı boyunca), M.Əliyev və Y.Səfərov küçələrində ümumi istifadədə olan nəqliyyat vasitələri üçün müvafiq yol nişanı qurulmaqla xüsusi hərəkət zolaqlarının təşkil edilməsinə razılıq verilib", - deyə BNA-nın məlumatında qeyd edilib.

# Amerika hərbçiləri "İncirlik" bazasından çıxarıla bilər

**Türkiyə ABŞ-ın başçılıq etdiyi koalisiya qüvvələrinin İncirlik hərbi bazasında yerləşdirilməsi məsələsini yenidən nəzərdən keçirə bilər. "Reuters" xəbər verir ki, bu barədə Türkiyə baş nazirinin müavini Veysi Kaynak bildirib.**

Onun sözlərinə görə, hərbi bazanın ABŞ və NATO-nun başçılıq etdiyi koalisiya qüvvələri tərəfindən istifadəsi məsələsi Türkiyə hökumətinin gündəmindədir.

# Gəncədə 28 yaşlı qadın özünü yandırıb

**Həyat yoldaşı ilə mübahisə edən qadın özünü yandırıb. Hadisə Gəncə şəhərində baş verib. Belə ki, şəhər sakini, 1988-ci il təvəllüdlü Abdullayeva Mehriban İnqilab qızı yaşadığı evdə həyat yoldaşı ilə mübahisə zamanı əsəbləşərək üzərinə neft tökərək özünü yandırıb. Müxtəlif yanıq xəsarətləri alan qadın yaxınlarının köməyi ilə xəstəxanaya aparılıb. Ona həkimlər tərəfindən tibbi yardım göstərilib və reanimasiya şöbəsinə yerləşdirilib. Qadının vəziyyəti orta-ağırdır.**

Faktla bağlı araşdırma aparılır.



# Türkiyədə terror səngimir

**Türkiyədə yeni terror aktı törədilib. Yanvarın 5-də yerli vaxtla saat 16 radələrində İzmirdə məhkəmə binası qarşısında partlayış bomba yüklü avtomobillə törədilib. APA-nın Türkiyənin NTV telekanalına istinadən verdiyi məlumata görə, partlayış məhkəmənin C qapısında, yalnız hakim və prokurorların avtomobillərinin saxlanılmasına icazə verilən duracaqda törədilib.**

Partlayışdan sonra atışma başlayıb. Partlayışı törədən terrorçulardan ikisi atışmada öldürülüb. Hadisə yerindən qaçan digər terrorçu polis tərəfindən axtarılır.

Törədilən partlayış nəticəsində 1 polis şəhid olub.

APA-nın "Milliyet" qəzetinə istinadən verdiyi məlumata görə, partlayış nəticəsində 10 nəfər yaralanıb. Yaralılardan birinin vəziyyəti ağırdır.

# Ərdoğan: "Türkiyənin təhlükəsizliyi Naxçıvandan başlayır"

**"Türkiyənin təhlükəsizliyi ölkə sərhədlərindən yox, Naxçıvandan, Batumidən, Balkanlardan və Hələbdən başlayır".**

Bu barədə Ankarada "Keçiören" metro stansiyasının açılışında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Ölkədə törədilən terror aktlarından danışan dövlət başçısı heç kimin Türkiyənin birliyini və bütövlüyünü sarsıda bilməyəcəyini deyib: "Terrorçular və onlara dəstək olanlar məqsədlərinə çata bilməyəcəklər. Türkiyəni diz çökdürməyə çalışırlar. Amma türk xalqının qəhrəmancasına müqaviməti buna ən yaxşı cavabdır".

R.T.Ərdoğan növbəti dəfə ölkədə ölüm hökmünün tətbiqinin mümkünlüyünü təkrarlayaraq, parlamentin ölüm hökmü cəzasını bərpa etmək qərarına gələcəyi təqdirdə müvafiq fərmanı imzalayacağını vurğulayıb.

# Ermənilər bir-birini qırır

**İşğal olunmuş Azərbaycan ərazilərində dislokasiya olunan Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində insident baş verib.**

APA-nın məlumatına görə, cəbhə xəttində yerləşən hərbi hissədə başqasının əvəzinə döyüş postuna çıxmaqdan imtina edən əsgər Haykaz Babeyan adlı hərbi qulluqçu bölük komandiri Mesrop Aşotyan və təminat manqasının komandiri gizir Masis Sarkisyan tərəfindən döyülərək ciddi bədən xəsarəti alıb.

Fiziki təzyiqlərə məruz qalan H. Babeyan avtomat silahından atəş açaraq gizir M.Sarkisyanı ayağından və adı hələlik açıqlanmayan digər müqavilə əsasında hərbi xidmətdə olan əsgər yoldaşını qarnından yaralayıb.

Yaralılar dərhal Xankəndindəki hərbi hospitala çatdırılıb. Gizir M.Sarkisyanın vəziyyətinin sabit olduğu, digər yaralının isə reanimasiya şöbəsinə yerləşdirildiyi bildirilir.

Məlumata görə, hadisə baş verən hərbi hissə komandanlığı hadisəni gizlətmək və məsuliyyətdən yayınmaq məqsədilə baş vermiş faktı rəhbərliyə bədbəxt hadisə kimi təqdim edib. Hazırda müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

Xatırladaq ki, erməni ordusunda qarşılıqlı münasibətlər, nizamnamə və döyüş növbətçiliyi qaydalarının pozulması halları son vaxtlar artıb. Ermənitərəfinin yaydığı rəsmi məlumatlara görə, təkcə ötən ilin noyabr ayında buna bənzər iki hadisə baş verib. Belə ki, noyabrın 13-də döyüş növbətçiliyi qaydalarının kobud surətdə pozulması nəticəsində əsgər Vardan Arakelyan adlı hərbi qulluqçu kiçik çavuş tərəfindən açılan atəşdən yerindəcə ölüb.

Digər hadisə isə noyabrın 22-də qarovul xidmətində olarkən A.Nersesyanla Aznavur Baleyan arasında baş vermiş mübahisə nəticəsində törədilib. Bildirilir ki, başından güllə yarası alan A.Baleyan hələ də İrəvandakı mərkəzi hərbi hospitalın reanimasiya şöbəsində müalicədədir.

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017

# Deputatlara "Ağ şəhər"dən mənzil verilməsi xəbəri yalan çıxdı

## Akif Təvəkküloğlu: " Bu məlumatı kimsə ortaya atıb, hər kəs də çaş-baş qalıb"

**Mətbuatda Milli Məclisin uzun müddətdir ki, mənzil-ev növbəsinə dayanan 54 nəfər sabiq və indiki deputatlarına ev veriləcəyi ilə bağlı məlumat yayılıb. Gununsesi.info-nun yaydığı məlumatda bildirilib ki, 54 nəfər sabiq və indiki millət vəkilinin uzun illərdən bəri davam edən mənzil-ev növbəsi "həsrəti"nə son qoyulub. Sabiq və indiki deputatlar mənzillərinə "qovuşmaq" üçün nə az-nə çox, düz 13 il gözləməli olublar.**

Sayt bildirir ki, paytaxtın "Ağ şəhər" deyilən ərazisinə yaxın yerdə (*Gürcüstan, Belarus, Ukrayna, Qazaxıstan səfirliklərinin yaxınlığında)* "KAT Ltd" tərəfindən tikintisinə 2003-cü ildən başlanan 2 bloklu 12 mərtəbəli göydələnin istifadəsi 2016-cı ilin dekabr ayının son günlərində baş tutub. "Məlumatlı mənbənin bildirdiyinə görə, binanın tikintisinin bu qədər uzun çəkməsi isə hazırda iflas həddində olan adıçəkilən tikinti şirkətinin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən olub" deyə, məlumatda qeyd olunur.

Qeyd olunur ki, yeni binada mənzil alanlar arasında spiker Oqtay Əsədov, Milli Məclisin (MM) Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, parlamentin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev, Milli Məclis Aparatının Komitə və komissiyalar ilə iş şöbəsinin müdir müavini, sabiq millət vəkili Rifət Ağalarov, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev də var.



**Lakin məlumatı Milli Məclisin mətbuat xidməti təsdiqləmədi. Belə ki, xəbəri dəqiqləşdirmək üçün müraciət etdiyimiz Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu "Yeni Müsavat"a söylədi ki, bu barədə onda heç bir məlumat yoxdur:** "Mənbəyi olmayan bu informasiya ilə bağlı mənə çoxsaylı müraciətlər olub. Təki deyildiyi kimi deputatlara ev verilsin. Ancaq bu barədə bizdə heç bir məlumat yoxdur. Bu məlumatı kimsə ortaya atıb, hər kəs də çaş-baş qalıb. Halbuki bunun heç bir mənbəyi də yoxdur. Bununla bağlı informasiya heç olmasa deputatlardan birinin dilindən çıxaydı, düşünərdik ki, yəqin məlumat buradan qaynaqlanıb. Ancaq belə bir hal da olmayıb axı... İlk gündür işə gəlmişik, bu cür xəbərlə üzləşmişik. Bir daha qeyd edirəm ki, bizdə bununla bağlı heç bir informasiya yoxdur. Mənbəyi olmayan informasiyalara çox diqqət etmək lazım deyil".

**Məlumatda adı çəkilən Əlməmməd Nuriyev də bildirdi ki, bu xəbər doğru deyil:** "Bu, tamamilə yanlış məlumatdır. Baxmayaraq ki, 2003-cü ildən kooperativ mənzil növbəsindəyəm, ancaq mən hər hansı bir mənzil almamışam. Ondan əvvəl də hələ 1992-ci ildən mənzil növbəsində idim. Nə Prezident Administrasiyasinda, nə də Milli Məclisdən ev vermədilər. Daha sonra dediyim kimi, kooperativ mənzil növbəsinə durmuşdum, oradan da ev almamışam. Bilirəm ki, hazırda tikinti işləri gedir və orada çox böyük mübahisəli məsələlər var. O məsələlər öz həllini tapmalıdır. Bugünlərdə mənzil verilməsi ilə bağlı hər hansı bir xəbər, məlumat almamışam".

Onu da qeyd edək ki, 2009-cu ildə 40-a yaxın deputat mənzillə təmin olunub. Mənzillər deputatlara onların rəsmi şəkildə müraciətindən sonra paylanıb. Mənzil alan deputatlar sırasında Pənah Hüseyn istisna olmaqla, bütün müxalifətçi deputatlar olublar.

❑ **Əli RAİS**

# Cəbrayıllı köçkünlər 5 nəfərin azadlığı üçün prezidentə müraciət etdi

## Dekabrın 22-si aksiyasından yarım ay ötür; saxlanılanların işindən apelyasiya şikayəti verilib

**Dekabrın 22-də Biləsuvarda cəbrayıllı məcburi köçkünlərin keçirdiyi etiraz aksiyasından sonra qəsəbədə elektrik problemi aradan qalxıb. Sakinlərin hazırda bu problemdən şikayətləri yoxdur.**

Hazırda cəbrayıllı məcburi köçkünləri narahat edən aksiya ilə bağlı saxlanılan 5 nəfərdir. Aksiyadan bir gün sonra qəsəbə sakinlərindən Cəlal Quliyev, Zaur Feyruzlu, Gülağa Alməmmədov saxlanıblar. Onlara qarşı hakimiyyət nümayəndəsinə müqavimət göstərməyə, iğtişaşlar törətməyə, başqasının əmlakına qəsdən ziyan vurmağa görə ittiham irəli sürülüb.

Dekabrın 24-də isə digər qəsəbə sakinləri Ülvi Quliyev və İlkin İsgəndərov eyni ittihamla həbs ediliblər. Saxlanılan şəxslər barəsində məhkəməyə qədər 3 aylıq həbs-qətimkan qərarı seçilib.

**Həbs edilənlərlə bağlı onların Hüquqlarını Müdafiə Komitəsi yaradılacaq. Bu barədə "Yeni Müsavat"a Cəbrayıldan olan keçmiş siyasi məhbus Məhəmməd Məcidli məlumat verib. O, saxlanılan şəxslərin son durumları, eləcə də onların ailələrinin vəziyyəti ilə bağlı bunları dedi:** "Yanvarın 14-də hadisə ilə bağlı tədbir keçiriləcək. O tədbirdə Müdafiə Komitəsi yaradılacaq. Vəkil Elçin Sadıqov 3 aylıq həbs-qətimkan qərarından apelyasiya şikayəti verib. İndiyə qədər onların hər birinə ailələri ilə danışmaq üçün bir dəfə telefon zənginə icazə verilib. Həbs edilənlər Şüvəlan təcridxanasında saxlanılır. Sakinlər bildirirlər ki, heç bir qanun pozuntusuna yol verməyiblər. Dinc qaydada aksiya keçirilib. Bu qəsəbədə istilik ancaq elektriklə təmin olunurdu. Qaz, istilik sistemi yoxdur. Sonradan isə pul ödəməlisiniz deyə sakinlərin elektrikini kəsiblər. Camaat da buna etiraz edib. Saxlanılanların ailələri deyirlər ki, onların heç bir günahları yoxdur, qeyri-qanuni həbs olunublar".



**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı "Yeni Müsavat"a dedi ki, hadisə ilə yaxından tanış deyil:** "QHT-lərlə bağlı edilən son dəyişikliklər bu qurumları müflis edib, eyni zamanda əyalətlərdə QHT-lərin bağlanmasına səbəb olub. Nəticədə bölgələrdə baş verən hadisələr barədə dəqiq məlumat əldə etmək çətin olur. Qanunvericilik region QHT-lərinin fəaliyyətini çətinləşdirdiyinə görə onlar monitorinq apara bilmirlər. Bakıda fəaliyyət göstərən QHT-lər ora nə cür getsinlər? Bunu düşünmək lazımdır. Tofiq Yaqublu və İlqar Məmmədovun İsmayıllıya nə üçün getdikləri hər kəsə məlumdur. Amma nə ilə nəticələndi hamı bilir. Bunu bəhanə kimi demirəm. Səfər etməyə imkanlar olmalıdır. Onların ədalətli həbs edilib-edilmələri yaxından araşdırılmalıdır. Bakıda fəaliyyət göstərən təşkilatların da fəaliyyəti məhdudlaşdırılıb. Bu sahə ilə məşğul olan təşkilatlar susmamalı idilər".

Yanvarın 5-də 127 nəfər cəbrayıllı məcburi köçkün həbs edilən 5 fəalın azadlığa buraxılması üçün ölkə prezidentinə müraciət ünvanlayıb.

**Müraciətdə deyilir ki, dekabrın 22-də elektrik enerjisinə borcun yaranmasına görə evlərinə verilən elektrik xətlərini "Azərişıq" tamamən kəsib və bu da əhalinin narazılığına səbəb olub.** "Bu dinc şəkildə etiraz toplantısı idi. İnsanların məqsədi fikirlərini icra orqanına çatdırmaqdan ibarət idi. Hadisənin qarşıdurmaya çevrilməsinə səbəb məhz polis rəisi Araz Şahverdiyev oldu. Dinc kütləni dubinka ilə vuraraq, söyüşlə təhqir edərək etiraz toplantısının polis və vətəndaş arasında qarşıdurmaya çevrilməsinə zəmin yaratdı. Məhz buna görə cavanlar hiddətlənərək qeyri-qanuni hərəkətlərə yol veriblər. Ağsaqqalları icra başçısı ilə görüşməyə qoymadılar. Münaqişənin bir səbəbi də budur". **Müraciətin sonunda deyilir:** "Cənab prezident! Siz həmişə məcburi köçkünlərin yanında olduğunuzu bəyan etmisiniz və humanist olduğunuzu bütün dünyaya sübut etmisiniz. İnanırıq ki, siz həmin o günahsız cavanların əziyyət çəkməsinə imkan verməyəcəksiniz".

❑ **Cavanşir ABBASLI**



# Trampın inauqurasiyasına Azərbaycandan kimlər gedəcək?

## Yeni dövlət katibinin iqtidarda şəxsən tanıdığı adamlar var

**ABŞ-ın yeni prezidenti Donald Trampın inauqurasiya mərasiminə iki həftə qaldı. Yanvarın 20-də D.Tramp and içəcək və yanvarın 21-dən ABŞ prezidenti vəzifəsini həyata keçirməyə başlayacaq. Artıq Trampın inauqurasiya həftəsinin proqramı açıqlanıb. İnauqurasiya komitəsinin yaydığı məlumata görə, mərasimin rəsmi hissəsi yanvarın 19-da səhər saatlarında başlayacaq. Əvvəlcə Tramp və vitse-prezident Arlinqton məzarlığına gedərək çələng qoyacaq. Bunun ardınca Linkoln memorialının qarşısında konsert proqramı olacaq.**

Yanvarın 20-də prezident və vitse-prezident Konqresdə and içəcək və ardınca Ağ Evə qədər davam edəcək inauqurasiya paradında iştirak edəcəklər.

Mərasimə son dərəcə ciddi təhlükəsizlik hazırlıqları da aparıldığı bildirilir. İnauqurasiya mərasiminə xarici ölkələrdən kimlərin dəvət edildiyi, kimlərin qatılacağı barədə isə hələlik rəsmi məlumat verilmir. ABŞ-ın Azərbaycandakı səfirliyi də Azərbaycandan kimlərəsə dəvət olub-olmadığı barədə hələlik açıqlama vermir. Səfirlik əməkdaşı Mehdi Hüseynquliyev "Yeni Müsavat"ın bu barədə sorğusuna yaxınlarda cavab veriləcəyini bildirib.

Azərbaycanın Xarici İşlər Nazirliyi və digər müvafiq rəsmi dövlət orqanları da ABŞ prezidentinin inauqurasiya mərasiminə dəvət olub-olmadığı, kimin qatılacağı barədə hər hansı məlumat verməyiblər.

Xatırladaq ki, 2013-cü ilin yanvarında Barak Obamanın inauqurasiya mərasimində ölkəmizi Azərbaycanın ABŞ-dakı səfiri təmsil etmişdi.

Ekspertlər isə hesab edir ki, ABŞ bu dəfə də səfirlə kifayətlənsə və Bakıya xüsusi dəvət göndərməsə belə, Azərbaycan iqtidarı üçün Tramp hakimiyyəti ilə işləmək çətin olmayacaq. Azərbaycan hakimiyyətinə əvvəlki dönəmlərdə də Respublikaçılarla işləmək Demokratlarla işləməkdən daha rahat olub. Yeni seçilmiş prezident Trampla da işləmək ən azından Obama administrasiyası ilə işləməkdən daha asan olacaq.

Bu fikirdə olan politoloqlar diqqəti daha çox yeni dövlət katibinin üzərinə cəmləyirlər. Donald Trampın xarici siyasətini "ExxonMobil" neft şirkətinin artıq sabiq sədri Reks Tillerson dövlət katibi olaraq yürüdəcək və təbii ki, onun da Azərbaycanla əlaqəsi olub, ölkəmizdə bir çox insanları şəxsən tanıyır. Bu şəxsi tanışlıq da münasibətlərin qurulmasında müəyyən rol oynayacaq. Trampın özü də Azərbaycanla tanışdır və burada biznes maraqları olub. Prezident seçiləndən sonra da Azərbaycan prezidenti ilə telefonla danışıb. Bu da Azərbaycanın müstəqillik tarixində bir ilkdir.

Ekspertlər qeyd edirlər ki, bütün bunlara rəğmən demək olmaz ki, Tramp və onun iqtidarı bütün məsələlərdə Azərbaycan iqtidarının yanında olacaqlar və heç bir tənqid səsləndirməyəcəklər. ABŞ-da hökumət idarəçiliyi əsrlərin ənənəsinə əsaslanır və hər qurumun öz işi var. Heç kim də onlara fərdi və kollektiv təzyiq göstərmək iqtidarında deyil. Bu baxımdan, ABŞ-ın demokratik təsisatları, o cümlədən ABŞ Dövlət Departamenti əvvəlki qaydada Azərbaycanda monitorinqlərini davam etdirəcək və hesabatlarını açıqlayacaq. Bu hesabatlarda tənqid də olacaq.

❑ **Etibar SEYİDAĞA**





# İstanbul terroru ilə bağlı yeni sensasion iddialar

## Hadisədən 5 gün keçməsinə baxmayaraq, polis hələ də 39 nəfərin qatilini tapa bilməyib, terrorçunun bir neçə nəfər olması iddiası ciddiləşir, şübhəlilər içərisində bir amerikalı da var...

**Yeni il gecəsi İstanbulda "Reina" gecə klubunda baş verən terror hadisəsi ilə bağlı istintaq davam edir. Xatırladaq ki, yanvarın 1-də saat 01.15 radələrində silahlı şəxs İstanbulun Ortaköy rayonunda yerləşən "Reina" gecə klubuna daxil olaraq qarşısına çıxana atəş açıb. Məlumata görə, terrorçu əvvəlcə barın giriş qapısındakı polis və mühafizəçini öldürüb, daha sonra içəri daxil olaraq təxminən 600 nəfər insanın olduğu zalı gülləyə tutub. Hücum nəticəsində 39 nəfər ölüb, 68 nəfər isə yaralıdır. Terrorçu hadisədən sonra insanlara qarışaraq qaça bilib.**







### Terrorçu uyğur əsillidir

Yanvarın 5-də mətbuat konfransı keçirən baş nazirin müavini Veysi Konak deyib ki, İstanbul terrorçusunun şəxsiyyəti və gedə biləcəyi yerlər, əlaqələri artıq müəyyən olunub. O deyib ki, terrorçunun xaricə qaçması ehtimalı azdır, artıq ölkə içərisində terrorçunun yaxalanması üçün əməliyyatlar davam edir. Veysi Kaynak "Reina" terrorçusunun milliyyətinin böyük ehtimalla uyğur olduğu, ancaq hansı ölkə vətəndaşı olması faktının hələlik dəqiqləşmədiyini də bildirib.

Qeyd edək ki, terror hadisəsinin ilk saatlarında şahid ifadələrində hücum edənlərin 2 və ya 3 nəfər ola biləcəyi qeyd olunsa da, sonradan daxili işlər naziri terrorçunun bir nəfər olduğunu bildirib. Ancaq sonrakı günlərdə yenidən mediada gecə klubuna hücum edənlərin iki nəfər olması ilə bağlı məlumatlar yayılmağa başlayıb. Ancaq baş nazirin müavini Kaynak bildirib ki, istintaq gecə klubunda qətliam törədənin bir nəfər olduğu qənaətindədir, ancaq terrorçuya yardım edənlər olub.

"Karar" qəzeti isə terrorçunun təhlükəsizlik kameralarına düşən görüntülərində geyimində fərqlərin olmasına diqqət çəkib. Bu əlamətlər isə terroru iki nəfərin törədə biləcəyi ilə bağlı şübhələrə səbəb olub. Belə ki, Zeytunburnu məhəlləsində qaldığı evdən çıxan terrorçunun açıq rəngli şalvar geyindiyi görünür. Klubun içərisinə atəş açaraq girən terrorçunun əynində isə tünd rəngli dar şalvar olub. Ancaq klubun içərisində atəş açan terrorçunun əynində evdən çıxarkən olduğu açıq rəngli və qabarıq cibləri olan şalvarın olduğu görünür. Eyni zamanda bardan qaçıb taksiyə minərkən və Kuruçeşmə bölgəsində təhlükəsizlik kamerasına düşən görüntülərdə də yenə əynində tünd və dar şalvar olduğu görünür.

Bu səbəbdən də ekspertlərə görə, terrorçunun Zeytunburnunda evdən çıxarkən geydiyi şalvarla "Reina" klubunda atəş açarkən əyninə geydiyi şalvar eyni olub. Bu isə başqa bir terrorçunun öncədən içəridə ola biləcəyi şübhəsinə səbəb olub.

Bundan başqa, şahidlər də klubda iki nəfərin ətrafa atəş açdığını bildirib. Ancaq hələlik rəsmi dairələr bu məlumatları təsdiqləmir.

### Terrorçu 3 nəfər olub?

Maraqlıdır ki, hadisə zamanı barda olan Səudiyyə Ərəbistanı vətəndaşı Həsən Xaşuqqi isə Türkiyə mediasına verdiyi açıqlamada bardakı terrorçuların sayının biri qadın olmaqla, 3 nəfər olduğunu deyib. Ərəbistanlı turist barda hotel vasitəsilə yer sifariş edib və hadisədən 40 dəqiqə əvvəl həyat yoldaşı ilə birlikdə bara gedib.

O deyib ki, terrorçular 3 nəfər olub, biri isə qadın olub. Hətta deyib ki, klubda olanlardan biri "o qadın bizi nədən öldürmək istəyir" deyə bağırıb. O deyib ki, terrorçular silahdan çox yaxşı istifadə ediblər. Xaşuqqinin bildirdiyinə görə, terrorçular ərəbcə danışmayıb, ancaq hansı dildə danışdıqlarını da anlamayıb. O dənizə atılaraq gizləndiklərini və bir saat ərzində atışmanın davam etdiyini bildirib.

### Terrora sevinənlər cinayət məsuliyyətinə cəlb olunacaq

Qeyd edək ki, bu hadisə Türkiyədə dünyəvi insanlarla dindarlar arasında ciddi fikir ayrılığına və nifrət çağırışlarına səbəb oldu. Yeni ildən bir neçə gün əvvəl Türkiyənin böyük şəhərlərində başlayan kampaniyada dini qruplar, camaatlar Yeni ilin müsəlman bayramı olmadığı və bu səbəbdən bu bayramı müsəlmanların qeyd etməsinin doğru olmadığı ilə bağlı təbliğat aparıblar. Bu isə öz növbəsində dünyəvi camiədə ciddi etirazla qarşılanıb. Türkiyə Diyanət İşləri başqanının Yeni il əleyhinə bəyanat yayması dünyəvi ölkə olan Türkiyədə ciddi etirazlara səbəb olub.

Bayram gecəsi baş verən terror aktı bir baxımdan Yeni il əleyhinə kampaniyanı daha da qızışdırıb. Radikal dindarlar qətliamı dəstəkləyən fikirlər səsləndiriblər. Sosial şəbəkədə isə ciddi fikri qarşıdurması, ittihamlar yayılıb.

Ötən gün məlum olub ki, İstanbul Cümhuriyyət Prokurorluğu "Reina" terrorundan sonra sosial mediada bu hadisəyə sevinənlər haqqında "xalqı kin və düşmənçiliyə təhrik və ya aşağılama" ittihamı ilə cinayət işi başlayıb. "Hürriyet" qəzetinin məlumatına görə, artıq 20-dək sosial media hesabı istintaqa cəlb olunub və araşdırılıb. Cinayət tərkibli fikirlər paylaşanlar haqqında həbs qərarı çıxarılıb, bir neçə nəfər isə artıq saxlanılıb.

### Yenə də İŞİD...

Qeyd edək ki, mediada yer alan məlumatlara əsasən, istintaq "Reina" terrorçusunun İŞİD üzvü olduğunu müəyyən edib. Məlumatlarda terrorçunun "xüsusi təlim" almış, peşəkar olduğu qeyd edilir. Belə ki, istintaq mütəxəssisləri kameradakı görüntülərə əsasən, terrorçuya 3 saatlıq məsafə qədər yaxınlaşsa da, sonradan onun izi itib və ya ən azı artıq bilgilər yoxdur. Hələlik istintaq yalnız onun hücumdan əvvəl olduğu evi müəyyən edib.

"Sözcü" qəzetinin məlumatına əsasən, hazırda qatilin həbs olunması ilə əlaqədar Terrorla Mübarizə Şöbəsinin əməkdaşları ilə yanaşı, 600 polis cəlb olunub. İstintaqın ehtimalına görə, terrordan dərhal sonra sosial mediaya sızdırılmış bəzi məlumatlar məhz terrorçunun izinin itirilməsi məqsədi daşıyıb. Məsələ ondadır ki, İŞİD-ə yaxın media və sosial şəbəkə hesabları isə "Xorasani" adlandırılan terrorçunun artıq Türkiyədən qaçdığı ilə bağlı xəbərlər yayıb. Hazırda Türkiyə polisi və istintaq həm də sosial media və internet saytlarındakı terrorçu ilə bağlı xəbərləri izləməyə alıb. O cümlədən terrorçunun fotoları və selfisinin sosial mediaya necə və hansı yolla düşməsi, bu iz azdırma işinin mənbələri araşdırılır. Çox güman ki, istintaq bununla terrorçunun bağlı olduğu mənbələri müəyyən etməyə çalışır.

Bundan başqa, Türkiyə polisi ölkə ərazisində İŞİD hücrələri olaraq bilinən evlərə əməliyyat təşkil edib. Zeytunburnu, Başakşehir və Silivridə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 24 nəfər şübhəli həbs olunub.

### Terrorçu amerikalı olub?

Bu arada Türkiyə mediasında "Reina" terrorçularından birinin barda yaralanan Jakob Raak olduğu ilə bağlı iddia ortaya atılıb. İddialara görə, yaralılar arasında olan amerikalı Jakob xəstəxanadan buraxılıb və Amerikaya göndərilib. Ancaq xəstəxanadan çıxarılıb Amerikaya yola salınan Jakobun hərəkətləri və rahat davranışları Türkiyədə şübhə ilə qarşılanıb. Pensilvaniya ştatının Chadds Ford qəsəbəsində doğulub böyüyən 35 yaşlı Ceykobun (Jakob) hazırda o qəsəbədə yaşadığı və kiçik bir şirkətinin olduğu bilinir. Maraqlıdır ki, xəstəxanadan çıxarkən onun şapkasında "quiet storm" yazısı olub. İddialara görə, bu ifadə ABŞ Quru Qoşunları Kəşfiyyatına məlumat toplayan şirkətin proqramının adıdır. Ancaq iddialara görə, bu nişan hərbi məhsul istehsal edən firmaya məxsus imiş. O da məlum olub ki, Raak hərbi məktəbdə təhsil alıb. Onun dəniz piyadası olduğu və Pensilvaniyada bir silah firmasında çalışdığı bildirilir. Maraqlıdır ki, onun İstanbula getməsi ilə bağlı göstərdiyi səbəb anasının dediyi (ad günündə iştirak) söylədiyi səbəblə eyni olmayıb. Bu isə Türkiyədə şübhələrə səbəb olub...

### Nuranə Həsənova Bakıda dəfn olundu

**İstanbulda Yeni il gecəsi baş verən terrorda ölən Nuranə Həsənova Bakıda dəfn olunub. "Qafqazinfo" xəbər verib ki, "Təzəpir" məscidində baş tutan mərasimdə mərhumun bacısı Vüsalə Həsənova da olub. O, Azərbaycanda sosial şəbəkələrdə bacısı haqda gedən müzakirələrdən təəssüfləndiyini dilə gətirib və yerli mətbuata açıqlama verməkdən imtina edib. Vüsalə Həsənova bacısının ölümü barədə danışmaqda çətinlik çəkdiyini qeyd edib:** "Mənim üçün çox ağırdır. Niyə axı bu lənətəgəlmiş terrorizmlə mübarizə aparmırsız?! Niyə məhz mənim bacım ölməli idi?! Niyə o?! Mənim gözəlim... Nuranə hələ cavan, həyat dolu bir qız idi, hamıya kömək edirdi..."

❑ **Kənan RÖVŞƏNOĞLU**











**İkinci dəfədir ki, Türkiyənin ağır günlərində İstanbulda oluram. 15 iyul gecəsi hərbi qiyam cəhdi baş verəndə Türkiyə vətəndaşları ilə bu dəhşətli mənzərəni birlikdə izlədik və yaşadıq. Səhərə kimi gözümüzə yuxu getmədi. Qaldığımız hotel Atatürk hava limanına yaxın idi deyə, prosesləri təkcə televiziya kanallarından, internetdən izləmirdik.**

Azər Ayxan



# İstanbul uğrunda savaş - Azər Ayxan Türkiyədən yazır

## Onu Konstantinopola çevirmək istəyən güclərlə sonadək direşməyin yeri var

Həm də hotelin böyür-başına düşən bombalardan, havada uçuşan F16 təyyarələrinin qulaq batıran səsindən, hərbi vertolyotların manevrlərindən, tankların, digər ağır texnikanın hərəkətindən nələrin baş verdiyini aydınca görə bilirdik. Türkiyə o gecə son 35 ilin ən qorxunc təqvimini yaşadı. Qiyam baş tutmadı, çox şükür, Türkiyə böyük və vahim bir fəlakətin eşiyindən döndü.

16 iyul səhəri küçəyə çıxdığımda insanlarla həmsöhbət oldum. "Qorxursunuzmu", sualına istehza ilə cavab verirdi əksər vətəndaşlar. Türkiyə insanı bir neçə saat öncə baş vermiş, əslində hələ də davam edən hərbi çevriliş cəhdindən əsla qorxmamışdı - tam əksinə, toplum, onun ayrı-ayrı fərdləri bu xain cəhddən güclənərək, ürəklənərək çıxmışdı.

17 iyuldan isə İstanbulda həyat normala dönməyə başladı. Günün işıqlı saatları hər kəs öz işindəydi. Axşam olunca isə insanlar meydanlara "demokratiya növbəsi" tutmağa gedirdi. Prezident R.T.Ərdoğanın çağırışı ilə xalq küçə və meydanlarda dövlətin keşiyini çəkirdi.

***

2016-cı ilin son saatlarında İstanbula vardım. Həkim işləri ilə əlaqədar olaraq bu səfərim vacib və vazkeçilməz idi. 31-dən 1 yanvara, 2017-ci ilin ilk gününə keçid... Gecədən xeyli keçmiş İstanbulda bir əyləncə mərkəzində terror olduğunu eşitdik. Üzüldük. Yeni il beləcə qara və faciəvi xəbərlə başladı. Düşmənin Türkiyəyə mesajı ortadaydı: **"İlinizi, gününüzü qara gətirəcəyik, ocağınızı söndürəcəyik".** Siyasi terminologiyadan uzaq ifadə etsək, durum, bax, beləydi.

Bu terrordan sonra İstanbul qınına çəkilib. Söhbət etdiyimiz adamlar deyirlər ki, 1 yanvar terroruna qədər teraktlar bu qədər qorxutmamışdı cəmiyyəti. Lakin son xain əyləm İstanbulun bütün sinir sisteminə işləyib - hər kəsdə bir tədirginlik, təlaş var. İnsanlar deyirlər ki, artıq övladlarını məktəbə, universitetə buraxmağa qorxurlar. İstanbuldakı universitetlərin, orta məktəblərin önündə əli silahlı polislər post qurub, növbə çəkirlər. Metrodan istifadə edənlərin sayında kəskin azalma var. Terrora həssas və nisbətən açıq ünvanlarda da insanların sayı getdikcə azalır.

Və bütün müşahidələr deməyə əsas verir ki, "Reina" terroru öz amacına çatıb. Zatən terror sözünün kökü qorxu, xof deməkdi. Türkiyə vətəndaşının gözünü qırmaq, onu evinə çəkilməyə məcbur etmək üçün dərin güclər, belə görünür, həmin ən məşhur əyləncə mərkəzini təsadüfən seçməyiblər.



Bu terror təkcə yerli insanları qorxutmayıb, turistlərin də sayı ciddi şəkildə azalıb. Son günlər İstanbulda turist görmək, xaricilərlə qarşılaşmaq demək olar ki, mümkün deyil. Ara-sıra ərəblər gözə dəyir. Ərəb olanda nolar, onlar da qorxur demək. İstanbul turizmlə yaşayan meqapolisdi. Sultan Ahmed, Ayasofiya meydanları və digər populyar ünvanlar bomboşdu. Taksiçilərdən tutmuş böyük tekstil, qida və sənaye şirkətləri, hotelçilər durumdan narazılıq edirlər - iş, ticarət ciddi şəkildə azalıb, müştəri sarıdan korluq çəkirlər.

Türkiyə vətəndaşı nə deyir? Durumu necə analiz edir?

İşin ən vacib və maraqlı tərəfi də budu. Terrorun bir başqa amacı da daxildə ixtilaf yaratmaq, xalqla hakimiyyətin arasını vurmaqdı. Fəqət Türkiyə vətəndaşı ona uzanan xain əlin ünvanını yaxşı bilir. Hətta Ərdoğan iqtidarını sevməyən, seçkidə ona səs verməyən (İstanbulda qaldığım ünvan CHP-nin ən güclü olduğu bölgələrdəndi) vətəndaş da deyir ki, məqsəd Türkiyəni bölüb parçalamaqdı. Türkiyə insanı durumu bu cür tərif edir: **"Bu bir savaşdı - Türkiyəni zəiflətmək, parçalamaq üçün başladılmış savaş. Ərdoğan iqtidardan getsə də bu savaş durmayacaq - Türkiyə bölünənə kimi davam edəcək".**

Əslində doğru təsbitdi. Hazırkı periodda, tutaq ki, Ərdoğan iqtidarı getsə də bu, Türkiyənin xilası olmayacaq, indiki anda qardaş ölkədə iqtidar dəyişikliyi daha böyük xaos yaradar. Zatən xalq da bunun fərqindədi. Ona görə də hələlik hakimiyyətlə o qədər də işləri yoxdu, AKP iqtidarına çox da yüklənmir vətəndaş, barmağını uzadıb iqtidarı suçlamır.

Amma bir qorxulu məqam var. "Reina" terrorundan sonra Türkiyə cəmiyyətində müəyyən qədər fikir ayrılığı yaranıb. Mühafizəkar qisimlə sekulyar kəsim arasında sosial şəbəkədə ciddi dartışmalar gedir. Həyat tərzi baxımından mübahisələr qızışır. O cür ünvanlarda yeni il qutlamalarının doğru olmadığını söyləyənlərin, bu fikri açıq formada deyənlərin səsləri terrordan sonra xeyli yüksəlib.

Yeri gəlmişkən, İstanbula endiyim gün hava limanından hotelə getdiyim taksinin sürücüsü də mühafizəkar təbəqənin nümayəndəsi idi. İsrarla bildirirdi ki, 31 dekabrda yeni ili qeyd etmək inancımıza, dini mənsubiyyətimizə ziddi, haramdı. Bilərəkdən onunla mübahisə etdim. "Abi, qüsura baxma, sən də onlardansan", deyə mənə söz soxdu.

Dünyəvi camiə ilə mühafizəkarların bu mövzudakı dartışması, fikrimcə, idarə olunan prosesdi. Görünür, "Reina"da terror törədənlər təkcə turizmi məhv etməyi, daxildə qorxu yaratmağı hesablamayıblar, demək, həm də Türkiyədə həyat tərzi məsələsini bu şəkildə qızışdıra biləcəklərinə əmin olublar.

Artıq hökumət duruma əl qoymağa çalışır. Baş nazirlik xalqa müraciət edib, ayrı-ayrı nazirliklər 500-ə yaxın facebook və twitter hesablarının nəzarətə götürüldüyü haqda açıqlama yayıb, qızışdırıcı mövqedən çıxış edənlərin cəzalandırılacağının anonsunu veriblər.

İnanaq ki, Türkiyə vətəndaşları düşmənin bu hiyləsinə uymayacaq. İsti, qanlı terrordan sonrakı "soyuq terror"un qarşısını ala biləcək müdriklik göstərəcəklər. Yoxsa bu, Türkiyəni daha böyük fəlakətə sürükləyə, vətəndaş qarşıdurmasına səbəb olar.

Türkiyənin xilası həmişəki kimi xalqın əlindədi. Xalq möhkəm dayansa, düşmənin hiyləsinə uymasa, ölkəsini də, iqtidarını da, özünü də bu fəlakətdən qurtara biləcək. Əks halda... Əksini düşünmək belə qorxunc.

Əslində İstanbul elə Türkiyə deməkdi. Bu şəhər psixoloji cəhətdən düşmənə təslim edilsə, sonra toparlamaq çətin olacaq. Onu Konstantinopola çevirmək istəyən güclərlə sonadək direşmək lazım. Türk xalqı bu gücü özündə tapacaq.

# "Maqnit"in sahibi MTN-də "yüklənməsi"ndən danışdı

## Ölkəyə qaçaqmal gətirdiyinə göz yummaq üçün sahibkardan 250 min manat alıblar

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) generallarının toruna düşən çoxsaylı iş adamlarından biri də "Maqnit" mağazalar şəbəkəsinin sahibi Seymur Abdullayev olub. O, barələrindəki cinayət işi məhkəməyə göndərilən MTN generalları - Sübahir Qurbanov, Teymur Quliyev, Natavan Mirvətova və qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verib.**

Deyib ki, 2015-ci ilin martında telefonuna zəng gəlib. Özünü MTN-in şöbə rəisi N.Alıyev kimi təqdim edən şəxs onu nazirliyə çağırıb: "Əvvəllər MTN-lə heç bir münasibətim olmayıb. Lakin 1992-1994-cü illər ərzində Daxili İşlər Nazirliyinin Narkomaniya və Narkobiznesə qarşı Mübarizə Baş İdarəsinin əməliyyat müvəkkili vəzifəsində işlədiyim zaman oranın rəisi Eldar Mahmudov olduğundan, Akif Çovdarovu və Hilal Əsədovu çox yaxşı tanıyırdım. Təxminən 4-5 gündən sonra Natiq Alıyev mənə yenidən zəng edərək MTN-ə gəlməyimi istədi. Onunla başqa yerdə - MTN-in binasının yanında olan "Sultan" kafesində görüşməyə razılaşdım. O, nazirliyin 4-cü Baş İdarəsinin üzərinə ciddi tapşırıqlar qoyulduğunu bildirərək, Bakı şəhərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin müəyyən miqdarda MTN-ə pul verməli olduğunu söylədi. Natiq Alıyevin dedikləri ilə razılaşmadım. Lakin sonradan ondan hansı miqdarda pul verilməli olduğu barədə soruşdum".

**S.Abdullayevin sözlərinə görə, N.Alıyev onun 500 min manat məbləğində pul verməli olduğunu deyib:** "Həmin məbləğlə razılaşmadım və ona 50 min manat pul təklif etdim. Bundan sonra Natiq Alıyev mənə hədə-qorxu gələrək qaçaqmalçılıq yolu ilə ölkəyə mal gətirdiyimi, 500 min manat məbləğində pul verməli olduğumu, verməyəcəyim təqdirdə problem yaradacağını, mağazalarımı bağlayacağını söylədi. Bu barədə vaxt istədim. Bir qədər sonra Natiq Alıyevə zəng vurub, 250 min manat verəcəyimi bildirdim. O da buna razı oldu və yenidən "Sultan" kafesində görüşdük. Natiq Alıyev əvvəlcə pulu götürməyərək öz rəisi kimi təqdim etdiyi Füzuli Əliyevi çağırdı, 10 dəqiqədən sonra həmin şəxs də kabinetə daxil oldu. Mən hissə-hissə onlara 250 min manat verdim. Bundan başqa, Füzuli Əliyevlə görüşdüyüm zaman o, mənim ətrafımda müəyyən əməliyyat-texniki tədbirlərin keçirilməsi barədə məlumat verdi. Füzuli Əliyevin mənə təqdim etdiyi faktlardan sonra başa



düşdüm ki, onlar telefon danışıqlarına qulaq asırlar".

**Zərərçəkmiş ifadəsində qeyd edib ki, hadisədən sonra bir neçə dəfə F.Əliyev ona zəng edərək, aylıq 10-15 min manat istəyib:** "Lakin onun təklifi ilə razı olmayaraq, bu barədə telefon vasitəsilə bildirdim".

**İttiham aktında göstərilib ki, digər şahid qismində "Maqnit" mağazalar şəbəkəsinin baş mühasibi Natalya Rəhimova dindirilib. O, ifadəsində "Maqnit" mağazalar şəbəkəsinə 14 mağaza, anbar və mərkəzi ofis daxil olduğunu vurğulayıb:** "Mağazalar şəbəkəsi fiziki şəxs Avdiyev İlqar Bayram oğlunun adına sənədləşdirilib və həmin şəxs rəsmi qaydada verdiyi VÖEN-ə əsasən vergi orqanlarında vergi ödəyicisi kimi qeydə alınıb. Şirkətin baş mühasibi kimi mən hər gün şəbəkəyə daxil olub, mağazaların satış nəticəsində əmələ gələn nağd pul vəsaitlərini qəbul etməklə həmin vəsaitləri müvafiq kassa hesablarına daxil etdirirəm. Şirkət İlqar Avdiyevin adına sənədləşdirilməsinə baxmayaraq, mağazalar şəbəkəsinin faktiki sahibi Abdullayev Seymur Azad oğludur".

**N.Rəhimova S.Abdullayevə onun göstərişi əsasında kassadan əvvəl 100 min, daha sonra 150 min manat verdiyini deyib:** "Pul alınmasına dair tərəfimdən müvafiq kassa məxaric orderi tərtib edilib. 2015-ci ildə şirkətə məxsus 9 mağaza bağlanıb".

**İş üzrə məhkəmə prosesinin Yasamal Rayon Məhkəməsində keçiriləcəyi haqda məlumatlar var.**

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 1 (6616) 6 yanvar 2017



# Ermənistanın cəsəddən düzəltdiyi çirkin oyun-XİN-dən sərt reaksiya

## Hikmət Hacıyev: "Ermənistan beynəlxalq konvensiya və humanitar normaları pozmaqla yanaşı, çirkin, təhlükəli bir oyun oynayır"

**Ötən il dekabrın 29-da Azərbaycan-Ermənistan sərhədində baş vermiş döyüşlərdən bir həftədən artıq vaxt keçsə də, Azərbaycan ordusunun əsgəri Çingiz Qurbanovun cəsədi Ermənistan tərəfindən geri verilmir. Beynəlxalq Qırmızı Xaça müraciət olunsa da, erməni tərəfi cəsədi qaytarmaqdan imtina edir. Ermənistan beynəlxalq humanitar normalara, müharibənin yazılmış və yazılmamış qanunlarına növbəti dəfə hörmətsizlik nümayiş etdirməkdədir.**

Ermənilərin əlinə hələ 90-cı illərin əvvəllərindən Qarabağ döyüşlərində istifadə etdikləri praktikanı-cəsədlərdən qisas almağı və onlarla alver etməyi yenidən işə salmaq fürsəti düşüb.

Beynəlxalq humanitar normalar, müharibələr zamanı yaralılarla, cəsədlərlə və əsirlərlə rəftarı tənzimləyən beynəlxalq konvensiyalar, lap elə yazılmamış müharibə qanunları cəsəddən qisas almağı, onun təhvil verilməsini ləngitməyi yolverilməz sayır. Bu, həm də heç bir insanlığa sığmayan praktikadır və belə praktikadan məhz Ermənistan istifadə edir.

Xatırladaq ki, bir neçə il əvvəl Azərbaycan ərazilərindəki erməni mövqelərinə hücum edib onu darmadağın edən, onları ciddi itkiyə məruz qoyan Milli Qəhrəman Mübariz İbrahimovun və Fərid Əhmədovun cənazələrini də Ermənistan uzun müddət qaytarmaqdan imtina edirdi.

Ötən ilin aprel döyüşlərində isə ermənilər cəsədlərin qaytarılmasına ona görə tezliklə razı oldular ki, Azərbaycan tərəfinin nəzarətində də çoxlu erməni döyüşçüsünün cəsədi qalmışdı. İndi isə Azərbaycan əsgərinin cəsədi düşmən əlindədir və onu qaytarmaq istəmirlər. Odur ki, keçmiş döyüşçülər, hərbi ekspertlər düşmənlə onun başa düşdüyü dildə danışmağın gərəkdiyini bildirirlər. Bu fikirdə olanlar hesab edir ki, Ermənistanın Qarabağdakı əsgərlərindən bir neçəsini ya diri, ya da ölü ələ keçirməklə şəhid əsgərimiz Çingiz Qurbanovu asanlıqla geri almaq olar.

Ermənistan şəhid olmuş əsgəri Azərbaycana təhvil vermədiyi bir vaxtda Azərbaycan öz paytaxtında Ermənistan vətəndaşları olan ermənilərə yaşamaq, hətta işləmək imkanı yaradır. Azərbaycan əsir düşmüş erməni hərbçilərinə yüksək insani rəftar nümayiş etdirir, Ermənistan isə azərbaycanlı əsirlərə amansız işgəncələr verir. Azərbaycan erməni əsgərlərinin cəsədlərini dərhal Ermənistana təhvil verir. Ermənistan isə azərbaycanlı əsgərin cəsədini də əsir saxlayır. Lakin belə görünür ki, işğalçı Ermənistan Azərbaycan tərəfindən dəfələrlə nümayiş etdirilmiş humanistliyi zərrə qədər də nəzərə almır. Ona görə də artıq düşmənə düşmənin özü kimi davranmağın zamanı çatıb.


Hikmət Hacıyev

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistan beynəlxalq konvensiya və humanitar normaları pozmaqla yanaşı, çirkin və təhlükəli bir oyun oynayır:** "Ermənistan Azərbaycanla sərhəddə təxribata yol verdikdən dərhal sonra Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayıb. 2 yanvarda isə Xarici İşlər Nazirliyi daha bir açıqlama yayıb. Ermənistanın Azərbaycan sərhədində törətdiyi təxribat qəti şəkildə pislənilib. Ermənistanın təxribatının qarşısını alarkən Azərbaycan ordusunun hərbi qulluqçusu şəhid olub. Çingiz Qurbanovun nəşini hələ də Ermənistan tərəfi beynəlxalq humanitar hüququ və xüsusilə də Cenevrə konvensiyalarının öhdəliklər və tələblərini kobud şəkildə pozaraq qaytarmaqdan imtina edir. Cenevrə konvensiyalarına əsasən döyüş şəraitində hər hansı itki olduğu halda onun qarşı tərəfə verilməsi dərhal təmin olunmalıdır. Amma Ermənistan tərəfi özünün qeyri-humanist, qeyri-insani mahiyyətini, Cenevrə konvensiyalarına məhəl qoymadığını nümayiş etdirərək Azərbaycan əsgərinin nəşini geri qaytarmır. Ermənistan əsgərin cəsədini öz çirkin dezinformasiya maraq və məqsədləri üçün istifadə etməyə çalışır. Bu, beynəlxalq təşkilatlar tərəfindən kəskin şəkildə qınanılmalıdır. Çingiz Qurbanovun cəsədinin geri alınması üçün aidiyyəti dövlət və hökumət qurumları ilə əlaqəli şəkildə Xarici İşlər Nazirliyi beynəlxalq təşkilatlara, beynəlxalq ictimaiyyətə müraciətlər edib. ATƏT-in Minsk Qrupunun həmsədrləri, Beynəlxalq Qızıl Komitəsi və digər beynəlxalq təşkilatlar qarşısında bu məsələ qaldırılıb, hərbi qulluqçunun Azərbaycana və ailəsinə təhvil verilməsinin təmin olunması istənilib. Ermənistan isə hələ ki əsgərin nəşini verməyib. Ermənistanın davranışına fikir versək bu dövlət sivil davranış qaydalarından tamamilə uzaq bir ölkədir və beynəlxalq hüquqi qaydalara riayət etməyən bir ölkədir. Son hadisə də bir daha Ermənistanın simasını açıq şəkildə beynəlxalq ictimaiyyət qarşısına qoydu. Ermənistan beynəlxalq konvensiya və humanitar normaları pozmaqla yanaşı, çirkin bir oyun oynayır. Bu çox təhlükəli bir oyundur və bu oyun regional sülh və təhlükəsizliyi təhdid altına qoyur".

**Etibar SEYİDAĞA**

# QMİ Suriya müftisinin Qarabağ sayıqlamasına cavab vermir

## Fazil Mustafa: "Suriya erməni dövlətidir, onun hökumətinin mövqeyi də ermənilərin mövqeyi ilə tam üst-üstə düşür..."


Bədrəddin Hassun

**Suriyanın baş müftisi şeyx Bədrəddin Hassunun Dağlıq Qarabağla bağlı fikirləri yayılıb. Bildirilir ki, Rusiya KİV-lərinə müsahibə verən Suriya müftisi Suriya ətrafında gedən situasiya və dünyadakı siyasi proseslər barədə danışarkən Dağlıq Qarabağ mövzusuna toxunub.**

Konkret olaraq müftinin müsahibə verdiyi mənbə açıqlanmasa da onun aşağıdakı fikirləri söylədiyi deyilir: "Dağlıq Qarabağda probleminin başlıca motivasiyası xalqın azadlığı üçün iradəsi, regionun tarixi və müharibədə qazanılan qələbədir. Burada hansı mübahisədən söhbət gedə bilər? Şəxsən mən Qarabağ ermənilərinin müstəqillik və azadlıqları uğrunda mübarizələrini dəstəkləyirəm. Xüsusilə vurğulamaq istərdim ki, Qarabağ münaqişəsinin əsas səbəbi din deyil, xalqın iradə ifadəsidir. Bununla hesablaşmamaq olmaz".


Fazil Mustafa

Bildirilir ki, Bədrəddin Hassun Türkiyəyə qarşı düşmən mövqeyi ilə seçilir. Sünnilik məzhəbinə məxsus olmasına baxmayaraq, İrana olduqca yaxın olan Hassun tez-tez orada müxtəlif konfranslarda, simpoziumlarda da iştirak edir.

**Qeyd edək ki, Suriya şeyxinin bu fikrinə rəsmi Bakıdan, xüsusilə də Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) heç bir reaksiya bildirilmədi. Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan deputat Fazil Mustafa isə dedi ki, Suriya hökumətinin mövqeyi də ermənilərin mövqeyi ilə tamamilə üst-üstə düşür:** "Baş müftinin fikirlərinə cəmiyyət tərəfindən reaksiya verildi. Bu cür Azərbaycan torpaqlarının işğalını dəstəkləyən, ermənilərə dəstək verən simasızların ölkəmizdə tərəfdarları mövcuddur. Bunlar tez-tez hansısa ölkənin maraqlarını öz ölkələrinin maraqlarından üstün tuturlar. Nə Ruhaninin səfərinə bir reaksiya verirlər, nə də Suriya müftisinin bu addımını pisləyirlər. Ancaq bu adamları bir az boş buraxan kimi durub Azərbaycana dar məqamda dəstək verən Türkiyəni söyürlər. Çünki heç kim hesabat aparmır ki, Türkiyə yeganə ölkədir ki, Azərbaycanın müharibə vəziyyətində olduğu Ermənistanla hər hansı şəkildə diplomatik əlaqələr qurmur, sərhədləri bağlı saxlayır. Bizə bu fakt lazımdır. Yoxsa ki, hansı ölkədə kim erməni ilə nə münasibət qurursa bu, bizi maraqlandırmır. Suriyaya simpatiya bəsləyənlər, Hələbin Suriya ordusu və "Hizbullah" terrorçuları tərəfindən müəyyən dərəcədə işğal olunmasından sonra bayramfəşanlıq keçirənlər bu məsələyə də cavab verməlidirlər. Bildirməlidirlər ki, kimi dəstəkləyirlər. Cavab verməlidirlər ki, ümumiyyətlə, ermənidən onların hansısa bir fərqləri varmı? Yaxud da ermənini dəstəkləyənlərlə onların arasında fərq varmı? Bunu söyləmək lazımdır".

**F. Mustafa bu məsələlərə gücü çatdığı qədər hər zaman reaksiya verdiyini dedi:** "Biz bu məsələlərə öz gücümüz çatdığı qədər reaksiya veririk. Çalışırıq ki, Azərbaycan cəmiyyətini bilgiləndirək, maarifləndirək ki, biz öz strateji maraqlarımızı doğru anlamırıq. Ona görə də bu məsələyə reaksiyanı heç gözləmirəm. Kim reaksiya verəcək, hansı məqamdan reaksiya gözləyirsiz? Ümumiyyətlə, hesab edirəm ki, buna ən azından ictimaiyyət, vicdanlı insanlar mövqe bildirməlidirlər ki, Suriya erməni dövlətidir. Suriya hökumətinin mövqeyi də ermənilərin mövqeyi ilə tamamilə üst-üstə düşür. Bizim Suriyaya bəslədiyimiz simpatiya ermənilərə bəslədiyimiz simpatiyadan başqa bir şey deyil. Ona görə də biz bu məsələlərdə daha çox koordinasiyalı şəkildə Türkiyəyə doğru hərəkət etmək məcburiyyətindəyik. Həmçinin Türkiyənin orada strateji maraqları elə bizim də maraqlarımız kimi qiymətləndirilməlidir. Bu məsələyə yanaşma belə olmalıdır".

**F. Mustafa bu cür fikirlərin tirajlanmasının təxribat olmasını düşünmür:** "Konkret mənbə olmasa da məlumdur ki, Suriyada erməniləri dəstəkləyirlər. Burada fərqli heç nə yoxdur. Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan da Suriyadan gələn ermənilərdəndir. Azərbaycan torpağının işğalında da Suriyadan gələn ermənilərin müstəsna rolu olub. Ona görə də bu məsələ ilə bağlı, məncə, heç bir təəccübə ehtiyac yoxdur. Dəfələrlə Ermənistanı dəstəkləyən bəyanatlar səsləndiriblər. Elə "Hizbullah"ın özü də erməniləri dəstəkləyir. Dəfələrlə Qarabağın müəyyən dərəcədə Ermənistanın tam haqqı olması barədə bəyanatlar səsləndiriblər. Buna görə də biz bu məsələdə nə isə yeni bir şey gözləməməliyik. Sadəcə olaraq, Azərbaycan dövlətinin maraqlarını düşünən insanlar bu məsələdə öz sərt mövqelərini ortaya qoymalıdırlar. Qafqaz Müsəlmanları İdarəsi də bu məsələni dəqiqləşdirdikdən sonra münasibətlərini bildirməlidirlər. Çünki bu, birbaşa Azərbaycanın ərazi bütövlüyünü şübhə altına salmaq istiqamətində atılan çox ciddi hadisəsidir. Buna qarşı bütün azərbaycanlılar dinindən, məzhəbindən, sosial statusundan asılı olmayaraq sərt reaksiya verməlidirlər".

**Mövzu ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin mövqeyini almaq cəhdimiz baş tutmadı.**

**Əli RAİS**

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017

# Türkiyə Qafqazda fəallaşır- Rusiya narahatdır

## Türkiyənin Qafqazda fəallaşması ilk növbədə Azərbaycanın maraqları ilə üst-üstə düşür, amma...

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin Qafqaz və türkdilli dövlətlərlə daha sıx yaxınlaşma siyasətinin fəallaşdırılacağını açıqlayıb.**



Türkiyənin elan etdiyi hər iki hədəfin Azərbaycana da aid olduğu məlumdur. Bir çox ekspertlər hesab edir ki, Türkiyənin Qafqazda fəallaşması, böyük dövlət olaraq nüfuz dairəsini genişləndirməsi ilk növbədə Azərbaycanın maraqları ilə üst-üstə düşür. Qarabağ məsələsinin ədalətli həllində də Türkiyənin bölgədə siyasətinin fəallaşmasının təsiri olacağı bildirilir.

Mövzu ilə bağlı söhbət etdiyimiz **politoloq Qabil Hüseynli** Türkiyənin türkdilli dövlətlər və Qafqaz siyasətini fəallaşdırmaq istədiyinin artıq müşahidə edildiyini bildirdi. Onun sözlərinə görə, Türkiyə hökuməti bunu ilk növbədə türkdilli dövlətlərlə əlaqələrinin yeni formalarının tapılması, əlaqələrin uzlaşdırılması ilə reallaşdırmaq istəyir. Türkiyə Qafqazdakı Azərbaycan, o cümlədən Türkmənistan və Qazaxıstanla münasibətləri daha da yaxınlaşdıracaq, Qırğızıstanla münasibətləri yaxşılaşdırmağa çalışacaq. Türkiyənin strategiyası türk dövlətlərinin böyük birliyini yaratmaqdan ibarətdir: "Bu birlik hələ iqtisadi zəmində formalaşa bilər. Bu isə türkdilli ölkələrin siyasi sahədə də birliyinin yaranıb formalaşmasına perspektivlər açа bilər. Məsələn, bu gün türkdilli respublikaların Parlament Assambleyası mövcuddur. Onun mərkəzi Bakıda yerləşir, amma hələ ki 4 türkdilli respublika daxil olub. Bunların sayını daha da çoxaltmaq olar. Məsələn, oraya Türkmənistan və Özbəkistan da qoşula bilər. Türkiyə böyük hədəflər götürüb və buna çatmaq üçün səy göstərir. Azərbaycanla və Gürcüstanla əlaqələrin daha da gücləndirilməsi vasitəsilə isə Qafqaz siyasətini fəallaşdırmaq istəyir. Türkiyə Dağlıq Qarabağ probleminin həllinin vacibliyini də önə çəkə və Ermənistanla da əlaqələrin yaranmasında şərt kimi Azərbaycan torpaqlarının azad edilməsini əvvəllər olduğu kimi irəli sürə bilər. Türkiyə hesab edir ki, Rusiya ilə yaxınlıqdan istifadə edib Qafqaz siyasətini fəallaşdırmaqla bölgədə təsir gücünü artıra bilər".

**Politoloqun sözlərinə görə, burada Rusiyanın Qafqaza özündən başqa ikinci gücün nüfuz etməsinə heç vaxt müsbət yanaşmadığını, bunu həzm etmədiyini nəzərə almaq lazımdır. Bu amil Türkiyənin qarşısında da maneəyə çevrilə bilər:** "Rusiya həmişə ayrı-ayrı türk respublikalarını öz tərəfinə çəkmək, onlara müxtəlif yollarla təsir etməklə böyük türk birliyinin yaranmasına maneçilik göstərir. Türkiyənin Qafqazda fəallaşmasına və nüfuz etməsinə də çox güman ki, seyrçi qalmaz. Odur ki, Rusiya faktorunu ciddiyə almaq lazımdır. Müəyyən qədər də İran faktoru Türkiyənin qarşısında maneədir. Bu iki dövlət türkdilli dövlətlərin birliyindən oddan qorxan kimi qorxurlar, Türkiyənin isə Qafqaza nüfuz etməsini istəmirlər.

Türkiyə kürəyini ABŞ-a və NATO-ya söykəyib türkdilli dövlətlərin birliyini yaratmaq və Cənubi Qafqazda möhkəmlənməyə səy göstərsəydi, bu istəyin alınacağını söyləmək mümkün idi. Amma Türkiyə düşünürsə ki, Rusiya ilə yaxınlaşma onun Cənubi Qafqazda fəallaşmasına, türkdilli dövlətlərin birliyini yaratmasına şərait yaradacaq, Rusiya buna göz yumacaq, yanılır. Rusiya çətin ki, bu iki məsələdə ürəyiaçıqlıq nümayiş etdirsin. Hələlik Türkiyə maneəsiz müəyyən addımlar atır. Məsələn, Türkiyə-Azərbaycan-Gürcüstan üçlüyünün görüşü baş tutub və bu görüşdə uzağa gedən məqsədlər bir layihə halında gündəmə gətirilib. Bu yaxınlarda Türkiyə, Azərbaycan və Türkmənistan üçlü görüşü baş tutacaq. Bu görüşdə də çox mühüm məsələlər gündəmə gətiriləcək. Bütün bunları nəzərə alaraq belə demək mümkündür ki, proses başlayıb və özünün ilkin mərhələsindədir. Ancaq baxaq görək Rusiya bu prosesə hansı mərhələyədək dözə biləcək".

❑ **Etibar SEYİDAĞA**




# Şimal-Cənub nəqliyyat dəhlizi reallaşır

**İranda nəhəng dəmiryol körpüsünün tikintisi iki həftəyə başa çatacaq.**

İLNA agentliyinin məlumatına görə, bu barədə İranın yol və şəhərin inkişafı nazirinin müavini Kheirollah Khademi məlumat verib.

O, yerli mühəndislər tərəfindən reallaşdırılan layihənin artıq yanvarın 19-da başa çatdırılacağını bildirib.

Manjil şəhərindən keçən "Sefid Rud" çayının üstündəki 1,43 kilometrlik bu körpü Qəzvin-Rəşt dəmiryol xəttinin bir hissəsidir.

Artıq tamamlanmaq üzrə olan bu xətt Rəştdən liman şəhəri Astaraya, ordan isə Azərbaycana keçəcək.

Qeyd edək ki, bu hissə beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin əsas tərkib hissəsidir. Bu xətt Azərbaycan, İran və Rusiya vasitəsilə Şimali Avropa ilə Cənubi Asiyanı birləşdirəcək.

Yeni İrandan Rusiya və Baltik limanlarına uzanan bu nəqliyyat dəhlizi ümumilikdə Fars körfəzi ilə Hindistanı birləşdirəcək.

Dəqiq desək, Hindistanın Mumbay limanı ilə İranın Bandea Abbas limanları, həmçinin Bakı, Astraxan, Moskva, Sankt Peterburq yollarını birləşdirərək Avropa və Skandinaviyaya uzanmalıdır.

Dəhliz istifadəyə verildikdən sonra İranla Azərbaycan arasında yükdaşıma və ikitərəfli ticarət əlaqəsi dramatik şəkildə artacaq.

Belə ki, hazırda İranla Azərbaycan arasındakı 600 min tonluq illik mal dövriyyəsinin 5 milyon tona qaldırılacağı gözlənilir.

Hazırda İranla Azərbaycan arasında illik ticarət dövriyyəsi 500 milyon dollardır ki, bunun da kəskin artacağı gözlənilir.

# Amerikalı yeni həmsədr yenilik edə biləcəkmi...

## Elxan Şahinoğlu: "Təyin edilən həmsədrlər Dövlət Departamentinin tapşırıqlarını yerinə yetirirlər"

**ABŞ ATƏT-in Minsk Qrupuna yeni həmsədr təyin edib. Bu ildən etibarən səfir Riçard E. Hoqland müvəqqəti olaraq bu vəzifəsini icra edəcək. Bu barədə xəbəri ABŞ-ın Azərbaycandakı səfirliyi yayıb. O, dekabrın 31-də səlahiyyət müddəti başa çatdığına görə həmsədr vəzifəsindən istefa verən səfir Ceyms B. Uorliki əvəz edəcək.**



Riçard Hoqland

Səfirliyin təyinatla bağlı məlumatında bu sözlər yer alır: "Birləşmiş Ştatların Dağlıq Qarabağ münaqişəsinin dinc həllinin tapılması üçün tərəflərlə işlədiyi bir vaxtda səfir Hoqlandın diplomatik sahədə topladığı geniş təcrübə mühüm əhəmiyyət daşıyacaq. Birləşmiş Ştatlar tərəfləri atəşkəsə dair öhdəliklərə sadiq qalmağa, Vyana və Sanki Peterburqda əldə olunan razılıqları icra etməyə və həmçinin bütün tərəflərə fayda gətirən danışıqlar prosesinə dönməyə çağırır. Səfir Uorliki daimi əvəz edən şəxsin adı sonra açıqlanacaq".

Riçard Hoqland 30 illik diplomatik təcrübəyə malikdir. O, ABŞ-ın Tacikistan və Qazaxıstanda səfiri, Pakistanda isə səfirin müavini vəzifələrində çalışıb.

Səfir Hoqland bu yaxında Suriyada zorakılığın dayandırılması sahəsində ABŞ-Rusiya əlaqələndirmə fəaliyyətlərinə rəhbərlik edib, Dövlət Departamentində Cənub və Mərkəzi Afrika məsələləri üzrə dövlət katibinin köməkçisinin müavini kimi çalışıb.

Hoqland bundan öncə Departamentin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunda Qafqaz və Mərkəzi Asiya Ofisinə rəhbərlik edib. O, həmçinin ABŞ-in Moskvadakı səfirliyinin sözçüsü də olub.

Yeni həmsədrdən gözləntilərlə bağlı Azərbaycan daxilində fikir ayrılıqları var. Əvvəlki həmsədrlərin fəaliyyətini nəzərə alan əksər ekspertlər bu düşüncədədir ki, Hoqlandın da sələfləri kimi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müsbət fəaliyyəti olmayacaq. Bununla belə, ona ümid edənlər də var.

**Politoloq Elxan Şahinoğlu indiyə qədər Minsk Qrupuna həmsədrlik edən ölkələrin onlarla diplomat dəyişdiyini qeyd etdi:** "Ümumilikdə, üç ölkənin toplasaq, 20-dən çox həmsədri olub. Edilən dəyişikliklərdən sonra heç bir irəliləyiş olmayıb. Azərbaycanın mövqeyinə yaxın olan həmsədr belə bir iş görə bilmədilər. Daha çox bu istiqamətdə müsbət həmsədr Metyu Brayza sayılırdı. O, bölgəni, Azərbaycanı yaxşı tanıyırdı, Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılmasının vacibliyini anlayırdı. Amma onun əlindən də bir iş gəlmədi. Əsas olan odur ki, həmin dövlətlərin başçıları bu istiqamətdə ciddi addımlar atsınlar. Çünki həmsədrlər, diplomatlar icraçıdırlar. Hətta iş o yerə çatmışdı ki, Brayza Azərbaycana səfir göndəriləndə erməni lobbisi onun bir ildən artıq işləməsinə imkan vermədi. Burada ABŞ-da olan erməni lobbisinin ciddi təsir imkanları var. Bundan əvvəlki həmsədr də qollarını çırmalamışdı ki, münaqişənin həllini sürətləndirsin. O da deyirdi ki, Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılması çox vacibdir. Bu fikirləri çox xoşumuza gəldi, çünki ədalətli mövqe idi. Amma sonradan fikirlərinə korrektə edərək bildirdi ki, eyni zamanda status məsələsi də həll olunmalıdır. Heç bir həmsədrin Qarabağla bağlı ortaya diqqətçəkən fəaliyyət qoyduğunu xatırlamıram".

**Politoloq yeni həmsədrdən gözləntilərinin olmadığını da qeyd etdi:** "Düzdür, yeni həmsədr kifayət qədər tanınmış diplomatdır, müxtəlif ölkələrin səfirliklərində işləyib, müxtəlif problemlərin həllinə cəlb olunub. Onun erməni lobbisinə yaxın və ya uzaq olması barədə bir söz söyləyə bilmərəm. Amma bu da elə bir rol oynamır. Çünki təyin edilən həmsədrlər Dövlət Departamentinin tapşırıqlarını yerinə yetirirlər. Bundan kənara çıxa bilməzlər. Onlar bu vəzifəyə təyin olunanda konkret tapşırıqlar alırlar. Tapşırıqlardan biri odur ki, balansı qoruyun. Hansı ki, torpaqları işğal olunan biz, təzyiqlərə məruz qalmalı olan Ermənistandır. Həmsədrlər mümkün deyil ki, öz düşündüklərini ortaya qoysunlar. Hətta olub ki, həmsədrlərdən erməni lobbisinə yaxın olanlar Azərbaycanla Ermənistan arasında balansı qorumağa məcbur olublar. Barak Obama hakimiyyəti dövründə Qarabağ probleminin həllinə ümumiyyətlə maraq göstərmədi. Donald Trampın dövründə də ABŞ rəhbərliyinin buna maraq göstərəcəyini düşünmürəm. Əksinə, hətta təhlükəli vəziyyət də yarana bilər. Çünki Tramp Putin hakimiyyəti ilə dostlaşmaq istəyir. Rusiya rəhbərliyinin isə əsas istəyi odur ki, Amerika Rusiya ətrafında olan məsələlərə qarışmasın, o cümlədən Cənubi Qafqazda fəallıq nümayiş etdirməsin. Bunun əvəzində Rusiya Trampla bəzi məsələlərdə əməkdaşlıq edəcək. Hətta düşünürəm ki, yeni həmsədr Trampın dövründə, ümumiyyətlə, fəallıq nümayiş etdirməsin".

❑ **Cavanşir ABBASLI**



# Namərdlərin töhməti

Zamin HACI
zaminhaci@gmail.com

**"Yeni - yaxşıca unutduğumuz köhnədir" məntiqiylə yeni il girən kimi Aşıq Ələsgəri oxumağa başladım. Dükan-bazardakı adamı yandıran qiymətlərdən sonra böyük ustadımızın bu misralarının əsl yeridir:**

***"İndən belə başımızda,***
***Namərdlərin töhmətidi.***
***Hansı məclisə gedirsən,***
***Arpa, darı söhbətidi.***
***Kartof ilə ayranaşı***
***Süfrəmizin zinətidi.***
***Buraya bahalıq salan***
***Qeyri yerin millətidi.***
***Nə işə əl atırıqsa,***
***Oluruq peşman bahalıq!"***

Mobil telefon şirkətləri isə bu yaralı qəlbimizlə məzələnməkdə davam edir. Aldığım mesaja baxın: "Bu təzə ildə də gözəlliyin, sevincin, hədiyyənin yarısı Filan firmadan olsun!" Guya keçən il çox sevinib şadlığımızdan dombalaq aşırmışıq, bunun yarısını isə həmin gülməşəkər firma təşkil edibmiş. İndi yenə şadlıq bərəsini açıb üstümüzə buraxıblar.

Keçən ilin axırında bir xəbər yayıldı ki, İrana gedib ərzaq almaq istəyən azərbaycanlı gömrük məntəqəsindəki basabasda ölüb. Sən demə, orda belə qayda var, hər bir qonşu rayon sakininin ayda bir dəfə İrana keçib özünə lazım olan ərzaqları almaq icazəsi olur. Yazıq insanlar da bu fürsəti dəyərləndirmək, qaçırmamaq üçün tələsirlər, İran və Azərbaycan hökumətləri isə qəsdən buraxılış məntəqəsində lazımi şərait yaratmır, adamlar bir-birini ayaqlamağa məcbur olur.

Orda mənim diqqətimi "ayda bir dəfə" qrafiki çəkdi. Çünki buna bənzərini elə keçən ilin axırları xəbər lentində görmüşdüm. Biləcəridə bir vətəndaş dükanında "Ehtiyacın varsa, götür, ehtiyacın yoxsa, gətir" adlı kampaniya açıb, imkansız adamlara yardım edir, ərzaq, geyim verir. Kimlərsə sui-istifadə etməsin, hamıya yardım çatsın deyə adam bir dəftər tutub, orda yardım alanların qeydiyyatını aparır, onlara deyirdi: "Bir də sənin növbən on beş gün sonra olacaq. Xahiş edirəm, o vaxta qədər bura gəlmə". Deməli, indi bəzi qonşu ölkələr də bizim üçün həmin dükanların funksiyasını yerinə yetirir. Şimal-qərbdən Gürcüstana, şimaldan Rusiyaya gedən, ərzaq gətirən vətəndaşlarımız var. Tarixi yaddaş deyir ki, araya dava düşməsə, qərbdən Ermənistan da indi eyni rolu oynayardı. Sovet vaxtı ordan ərzaq, pal-paltar almağımız yadımızdadır. Azərbaycana isə keçici qırmızı bayraq taxırdılar - bütün mümkün yerlərinə. İndi də həmin bayrağı taxan, taxdıran adam(lar) bayraqdarımız sayılırlar. Bəlkə də təbii baxmalıyıq - işlərini görüblər. Əsas bayraq deyilmi?

Gündəmin paralelləri də öz yerindədir. İsrailin baş naziri Benyamin Netanyahu ölkəmizə səfərə gəlmişdi. Burdan qayıdandan Benyamin müəllimin başı bəladadır, sanki bizim suyumuzu içmək Patrik Hikki, Viktor Kojeni və sairə onlarla beynəlxalq fırıldaqçıya düşmədiyi kimi, ona da pis təsir edibdir. İsrail prokurorluğu Netanyahuya qarşı korrupsiya və rüşvətxorluq ittihamıyla cinayət işi açıbdır. İndi adam fikirləşir ki, görəsən, bu Netanyahu əvvəldən fırıldaqçı idi, yoxsa bizim hökumətə qoşulandan sonra oldu?

Sözgəlişi, bir gülməli məsələ də olmuşdu, həmin məsələ yapistlərin təbiriylə desək, "Azərbaycanın dünya şöhrətini" özündə əks etdirirdi: Netanyahu dekabrda İsrailə qayıdanda şikayətlənmişdi ki, o cür bizi sevən xarici müsəlman dövlətə səfər elədim, ancaq İsrail qəzetləri bu səfərdən cümlə də yazmadı.

Doğrudan da ar olsun İsrail qəzetlərinə. Kişi o boyda əziyyət çəkib, gəlib sizin üçün qazdan-neftdən, silah kontraktından-zaddan yığıb aparıb, siz isə bir cümlə yazmırsınız. Ümid edək yoldaş Amaşov bütün İsrail mətbuatını "Reket qəzetlərin Qara siyahısı" dövlətlərarası media xartiyasına daxil edərək külli-aləmdə biabır günə qoyacaqdır! Bundan sonra Əflatun müəllimə "Fələstin mətbuatının dostu" prizi vermək olar.

Yazını isə xarici işlər nazirimiz Elmar Məmmədyarovun keçən həftəki çıxışından sitatla bitirirəm: "Azərbaycan regionun lider dövlətidir. Hamı bizimlə hesablaşır. Azərbaycan nəinki regional layihələrin iştirakçısı, həmçinin təşəbbüskarı və lokomotivi rolunda çıxış edir".

Əlbəttə. Gömrükdə basabasda ölən vətəndaşımız da İrandan ərzaq almağa gedərkən regionun lideri kimi gedirdi. Lokomotivə gələndə, xahiş edərdik heç olmazsa Bakı-Tiflis-Qars dəmir yolunun lokomotivi bu il nəhayət işə salınsın, yoxsa 10 ildir o "drandulet" proje Azərbaycan xalqının yüz milyonlarla dollarını udmaqla məşğuldur (üst-üstə 1 milyard dollara yaxın pulumuz gedib), ortada isə heç zad yoxdur.

# İrəvanın təbliğat maşınına növbəti zərbə

**Ötən ilin Qarabağ mövzusunda bir mühüm detal da heç sübhisiz ki, Azərbaycanın işğalçı ölkəyə qarşı təbliğatda əldə elədiyi bənzərsiz uğur oldu. Kriminal Sərkisyan rejimi tərəfindən təqib edilən bir neçə erməni ictimai-siyasi fəalın Bakıya gələrək, burada Xocalı soyqırımı abidəsini ziyarət eləməsi və öz xalqı adından üzr istəməsi, az sonra Azərbaycanla Ermənistan arasında Sülh Platformasına imza atması həqiqi mənada düşmən ölkə rəhbərliyi üçün şok effekti yaratdı.**




## Sərkisyan üçün Yeni il şoku - daha bir erməni ailəsi Bakıya gəlir

### Bakı Sülh Platformasına qoşulanların sayı bu il daha sürətlə artacaq, çünki...; Ermənistan rəhbərliyinin seçki təbliğatı da fiasko ola bilər; **Tamilla Arzumanyan:** "İrəvanda hamı yaşamaq uğrunda mübarizə aparır..."

Eyni zamanda bu hadisə faktiki surətdə Dağlıq Qarabağ məsələsində keyfiyyətcə yeni bir mərhələnin, həm də Azərbaycanın təbliğati uğuru ilə başlanan bir mərhələnin əsası qoydu. Proses hələ təzə başlayıb. Əgər ötən ilin noyabrında yaradılan platformaya əvvəlcə 3 erməni imza atmışdısa, ilsonu sənədə qoşulanların sayı 7-yə çatdı. Təzə il başlar-başlamaz isə daha bir erməni ictimai xadimin, həm də ailəlikcə Sülh Platformasına qoşulmağa hazır olduğu bəlli olub.

***

Xəbər verildiyi kimi, sosial şəbəkələrin daha bir aktiv istifadəçisi, ictimai fəal və hüquqları daima pozulan Ermənistan vətəndaşı Tamilla Arzumanyan Azərbaycan hakimiyyətinə son ümid yeri kimi müraciət edərək, öz hüquqlarının bərpa edilməsini istəyib. T.Arzumanyan və onun ailə üzvləri - həyat yoldaşı və qızı Ermənistan hakimiyyəti tərəfindən total izlənmənin qurbanlarıdır. Bundan əlavə, Azərbaycan hakimiyyətinə müraciətin müəllifi qeyd edir ki, Ermənistan-Azərbaycan Sülh Platformasının yaradılması təşəbbüsünü xüsusi maraqla izləyib və qrupun iştirakçılarını səmimi qəlbdən dəstəkləyir.

**T.Arzumanyanın müraciəti onun şəxsi səhifəsində Yeni ildən az öncə, dekabrın 27-də dərc olunub. Bundan dərhal sonra o, Ermənistan Milli Təhlükəsizlik Xidmətinə çağırılıb, mənəvi və fiziki təzyiqlərə məruz qalıb. Dünən isə Arzumanyan virtualaz.org-un xüsusi müxbirinin suallarını cavablandırıb. O, kömək üçün Azərbaycana müraciət etmək niyyətində olduğunu bir daha təsdiqləyib:** "Çünki anladım ki, öz ölkəmdə mənə və ailəmə kömək etmək fikrində olan yoxdur - baxmayaraq ki, ailəmlə birlikdə Fransadan Ermənistana qayıdandan sonra *(orada bizi Ermənistan səfirliyi və Liondakı erməni kilsəsi qarət etmişdi)*, 2015-ci ildən başlayaraq istisnasız olaraq Ermənistandakı bütün səlahiyyətli orqanlara, Ermənistan Respublikasında Fransa səfirliyindən tutmuş, DTX və Prezident Aparatı da daxil olmaqla, müraciət etmişəm, bizə kömək edən yoxdur. Bizim tərəfə heç tüpürmək belə istəmirlər".

Müharibənin nə erməni, nə də Azərbaycan xalqlarına lazım olmadığını vurğulayan erməni ictimai fəal "Hər iki tərəf nəhəng insan itkisi verdi. Bu, bizə yalnız çox böyük ağrı və məşəqqət gətirdi, halbuki bunlar olmaya da bilərdi", - deyə qeyd edib.

**"Özünüz və ailəniz İrəvandasınız. Orada vəziyyət necədir, insanların əhval-ruhiyyəsi hansı vizəyyətdədir, nəyə ümid edirlər" sualına o belə cavab verib:** "Faktiki olaraq 21-ci əsrin qətliamına məruz qalan xalqın əhvalı və ümidləri necə ola bilər? Hamı yalnız gündəlik problemləri ilə məşğuldur, həyatda qalmağa çalışır, gündəlik çörəkpulu dalınca qaçır. Əksər hallarda bu artıq mümkün olmur".

**Bu yaxınlarda Bakıda Dağlıq Qarabağ probleminin həlli ilə bağlı yaradılan Ermənistan və Azərbaycan arasında Sülh Platformasını sosial şəbəkələrdə dəstəkləmiş Tamilla Arzumanyan bir daha öz mövqeyini təsdiqləyərək deyib:** "Bəli, biz, bütün mənim ailəm sülh istəyirik. Bu sülh hər iki xalqın arzusudur və o zəruridir. Müharibədən, qurbanlardan və bu illərdə keçdiyimiz əzab-əziyyətdən yorulmuşuq. Fikrimcə, Bakı platforması bizi çatmağa can atdığımız məqsədə - sülhə və sağlam düşüncəyə yaxınlaşdırmaq iqtidarındadır". Erməni ictimai fəal Bakıya gəlməyə hazır olduğunu deyib: "Əgər Azərbaycan ailəmin təhlükəsizliyinə zəmanət verərsə, bəli, biz gəlməyə hazırıq".

***

Yəqin ki, Azərbaycan tərəfi belə bir təhlükəsizlik qarantını Arzumanyan ailəsinə də verəcək. Hər halda, birinci dəfə deyil. Üstəlik, bu kimi səfərlərin Qarabağa məsələsində rəsmi Bakıya hansı qiymətli təbliğati dividentləri gətirdiyi ortadadır. Artıq erməni ictimai fəallardan biri Bakıda - haqqin.az saytında işə də düzəlib.

Ən önəmlisi, bu kimi faktlar Azərbaycan haqda tolerant ölkə imicini möhkəmlədir ki, bu da düşmən tərəfinin ölkəmizə qarşı ənənəvi tezislərini darmadağın edir. Axı Sərkisyan klanının əsas arqumenti budur ki, "ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya, dil tapa bilməz, Azərbaycanda isə belə şey, ümumiyyətlə, mümkün deyil".

Ərazilərimizin işğalına dünyanın gözündə haqq qazandırmağa hesablanmış bu təbliğata cəmi bir neçə erməni qısa zamanda ciddi zərbə vurub. Proses yəqin ki, təzəcə başlayıb və 8 erməni ilə də bitməyəcək. Növbəti dalğa yəqin ki, Arzumanyanın ailəsi Bakıya gələndən sonra başlayacaq və 2017-ci il ərzində proses daha sürətlə gedəcək.

Həm də o səbəbə ki, erməni xalqı xüsusən də aprel döyüşlərindən sonra acı gerçəyi bütün ciddiliyi ilə əxz edib. O sırada böyük müharibənin ona nə vəd elədiyinə əminlik hasil edib. Sadə ermənilər hakimiyyəti qəsb eləmiş Qarabağ klanının hakimiyyət oyunları yolunda daha qurbanlıq olmaq istəmirlər. Bu xüsusda işğalçı ölkə rəhbərliyinin təzəcə başlayan seçki təbliğatı da böyük ölçüdə fiasko ola bilər. Çünki ermənilərin Bakı səfərləri, Sülh Platformasına qoşulan ermənilərin sayının artması istər-istəməz hakim partiyanın siyasi opponentlərinin mövqeyini gücləndirəcək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017

# Sabiq nazirdən Bakıya ərəb axını ilə bağlı ilginc iddia



## Fikrət Yusifov: "Bunların bizə xeyri lazım deyil, ziyanlarını istəmirik"

**Sabiq maliyyə naziri Fikrət Yusifov sosial şəbəkədəki şəxsi səhifəsində ərəblərin Bakıya axın etmələrindən narahatlığını ifadə edən fikirlər paylaşıb. O bildirib ki, yaxın bir dostu Yeni ilə bir neçə gün qalmış Dubaydan Bakıya dönərkən təyyarədə sərnişinlərin 80%-dən çoxunun ərəblər olduğunun şahidi olub: "Həmin ərəblər Yeni ili Azərbaycanda qarşılamağa gəlirlərmiş. Bir tərəfdən bu çox yaxşı haldır. Hər birimiz postneft dövründə ölkəmizdə turizmin sürətli inkişafını istəyirik. Ancaq nədənsə, bu ərəblərin Azərbaycana axını artdıqca mənim içimdə narahatlıq da böyüyür. Çünki bunlar olan yerdə sabitlik olmur. Bütün bunların kökündə isə onların təbiət etibarilə cahil olmaları dayanır. Bir baxın ərəb dünyasına, görün bu gün orada nələr baş verir? Düşünürəm onları məsafədə saxlasaq daha yaxşı olar..."**



Doğrudan da, turist kimi Bakıya gələn ərəblərin sayında bu ilin yay aylarından etibarən artım müşahidə olunur. Bunu rəsmi rəqəmlərdən də görmək olur. Belə ki, Mədəniyyət və Turizm Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) ölkəmizə gələn turistlərin sayında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin birinci yarım ili ərzində 10 086 nəfər olmaqla, 19 dəfə, Bəhreyndən gələn qonaqların sayında 2016-cı ilin birinci yarım ili ərzində 422 nəfər olmaqla, 13 dəfə artım qeydə alınıb. Bununla yanaşı, ərəb ölkələri arasında ən yüksək artım tempi İraqda qeydə alınıb. Ötən ilin ilk altı ayı ərzində 11 028 nəfər İraq vətəndaşı ölkəmizə səfər edib ki, bu da əvvəlki ilin yanvar- iyun aylarındakı göstəricilərdən (376 nəfər) 30 dəfə çoxdur. 2016-cı ilin birinci yarım ili ərzində ərəb ölkələrindən Azərbaycana səfər edən xarici vətəndaşların sayı ümumilikdə 25 min nəfər təşkil edib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə (3158 nəfər) təxminən 22 min nəfər (8 dəfə) çoxdur.

**Bəs Fikrət Yusifovu konkret olaraq narahat edən məsələ nədir?**

**"Yeni Müsavat"a Fikrət Yusifov fikrini daha geniş formada aşağıdakı kimi əsaslandırıb:** "Onların iqtisadi baxımdan faydaları var, bu, öz yerində. Ancaq məsələ burasındadır bizim harada zəmanətimiz var ki, səhəri gün İŞİD-ə aid olan insanlar bu ərəblərin arasında ölkəyə daxil olub, hər hansı bir təxribat törətməyəcəklər. Bu qaydada ərəblər artıq Avropaya da axın edirlər və terrorların araşdırılmasında bəlli oldu ki, terrorçular ərəb axınının içərisinə qoşulub gəliblər. Ərəb dedikdə mən təkcə Səudiyyə Ərəbistanını nəzərdə tutmuram. 20 ərəb dövləti var və mən də bütövlükdə bu cəbhəni nəzərdə tuturam. Camaatı qəfəsə salıb yandırmaq, başını kəsib videoya çəkib, sonra da onu internet vasitəsilə yaymaq nə İslamda var, nə də qeyri bir dində. Belə götürəndə bunların heç bizə xeyri də lazım deyil, ziyanlarını da istəmirik. Ərəblərin çoxalması istər-istəməz adamın içində narahatlıq yaradır. Sosial şəbəkələrdə bu məsələ ilə bağlı təkcə mən deyil, onlarla oxşar fikir bildirənlər var. Çünki hər kəsdə eyni hissləri yaradırlar. Bu gün guya sakit gəliblər və hər hansı bir iğtişaş hadisəsi törətmirlər. Ancaq şəhərin ortasında elə hərəkətlər edirlər ki, onu heç ifadə etməli deyil. Bu şəhərdə çox biabırçı işlərlə məşğuldurlar. Narahatlığımın əsas səbəbi ondan ibarətdir ki, bu gün dünyada baş verən terrorun mərkəzində bunlar dayanıblar. Dubaydan gələn ərəblərin hamısı oralı deyil. Orada hava limanı olduğu üçün bütün ərəb ölkələrindən Dubaya gəlib, oradan da Azərbaycana yollanırlar. Bu insanlar mahiyyət, təbiət etibarı ilə sakit deyillər".

**Ərəblərin ölkə üçün nə qədər təhlükəli olub-olmaması ilə bağlı təhlükəsizlik üzrə ekspert Arzu Nağıyevin də fikirlərini aldıq. A. Nağıyev "Yeni Müsavat"a bildirdi ki, hər hansı bir kontingentin artmasının sonu yaxşı olmur:** "Misal üçün, vaxtilə belə bir kontingentin çinlilərlə bağlı olması demək olar ki, bütün dövlətlərin ərazisində "Çayna-taun"ların yəni Çin mini şəhərlərinin yaradılmasına gətirib çıxardı. Onlar da öz qanunları ilə idarə olunan icmalara çevrildilər. Məhz ərəb dövlətlərindən bura turistlərin gəlməsi düşünürəm ki, bu gün Ərəbistanda baş verən hadisələrlə, "Ərəb baharı" ilə uzlaşsa, bu, böyük problemlərin yaranmasına səbəb ola bilər. Məhz buna görə də gələn turistləri kimliyindən asılı olmayaraq xüsusi xidmət, hüquq-mühafizə orqanları, cavabdeh turist təşkilatları hərtərəfli yoxlamalıdırlar. Onların nə məqsədlə gəlmələri və digər bu kimi arqumentlər də xüsusi olaraq nəzarətdə saxlanmalıdır. Gələcəkdə ərəb dövlətindən gələn şəxslərin hər hansı bir təhlükə yaratması məsələsini də hesab edirəm ki, o qədər də qabartmaq da düzgün deyil. Lakin təkcə ərəb dövlətləri deyil, ümumiyyətlə, Azərbaycana gələn axından, kütlədən onun dinindən və millətindən asılı olmayaraq hər tərəfli qorunmalı, ehtiyatlı davranılmalıdır. Hətta müəyyən məqamlarda onların özlərinin də təhlükəsizliyi təmin edilməlidir. Məlumdur ki, ərəb dövlətlərindən gələnlərin arasında dini inanc baxımından da müxtəlif fikirləri var. Bunlar da nəzərə alınmalıdır".

❑ Əli RAİS

# İŞİD Azərbaycana Avropadan sıza bilər

## İlham İsmayıl: " İŞİD zəiflədikcə hədələrinin də, terrorlarının da sayı artacaq"

**Bayram günləri Azərbaycan və dünya gündəminin əsas mövzularından biri İŞİD-in yenidən Avropanı hədəf alması barədə xəbərlər oldu. Belə ki, İŞİD terror təşkilatının liderlərindən birinin 400 yaraqlı ilə Avropaya daxil olması xəbəri yayıldı. Bu barədə "Daily Mail" İtaliya xüsusi xidmət orqanlarına istinadən məlumat yayıb. Qrupa alban cihadçı Əbu Əbdulla əl-Kosova adı ilə tanın Lavdrim Muhadcerinin rəhbərlik etdiyi bildirilib. Terrorçuların Kosova dövlət orqanlarını və pravoslav kilsəsini hədəf alacağı güman edilir.**

İtaliyanın "L'Espresso" qəzetinin məlumatına görə, Avropaya daxil olan terrorçuların sayı 400 nəfərə çatır.

Qeyd edilir ki, onlar Suriyadan miqrant qismində köhnə qitəyə daxil olmağı bacarıblar.

Bu xəbərin "istiliyi soyumamış" 26 yaşlı Bakı sakininə naməlum şəxs tərəfindən 14 min ABŞ dolları qarşılığında İŞİD-ə qoşulmaq təklifinin edildiyi üzə çıxdı. Təklifdən imtina edən Orxan Əhmədov Suraxanı Polis İdarəsinə məlumat verib, eyni zamanda Daxili İşlər Nazirliyinin "102" zəng mərkəzinə məlumat verməyi də unutmayıb. Bakı sakini Suraxanı polisinə ərizə ilə etdiyi müraciətində bildirib ki, 2016-cı il dekabr ayının 26-da naməlum şəxs ona zəng edərək İŞİD-ə qoşularaq cihad etməsini təklif edib. O.Əhmədov bundan imtina edəndə naməlum şəxs bu işin müqabilində 14 min ABŞ dolları təklif edib.

Yanvarın 3-də isə sosial şəbəkələrdə Suriyanın Hələb şəhərindən şübhəli şəxsin ölkəmizə daxil olması ilə bağlı yayılan xəbər də diqqət çəkdi. "Qafqazinfo" hüquq-mühafizə orqanlarına istinadən məlumat dərc etmişdi ki, belə bir şəxsin olduğu ehtimal olunur və polis araşdırma aparır. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Sadiq Gözəlov məsələ ilə bağlı "Qafqazinfo"ya açıqlama verdi. S. Gözəlov bildirib ki, həmin şəxs Özbəkistan vətəndaşıdır və itkin düşən şəxs kimi axtarışa verilib: **"Həmin şəxs 1992-ci il 26 avqust tarixində Özbəkistanın Daşkənd vilayətinin Zangiata rayonunda anadan olmuş Əhmədcanov Məhəmmədcan Akmalcan oğludur. O, 29.06.2016 tarixindən xəbərsiz itkin düşən şəxs kimi axtarışa verilib. Onun Azərbaycanda olması ehtimal edildiyindən Özbəkistan tərəfindən bizə müraciət olunub. Həmin şəxs Özbəkistan vətəndaşıdır. Bir daha xahiş edirik ki, KİV nümayəndələri bu cür məlumatları yayarkən dəqiqləşdirsinlər, ehtiyatlı olsunlar".**



Ekspertlər yayılan hər üç xəbərlə əlaqədar Azərbaycan hökumətini uyaracaq açıqlamalar verirlər. İŞİD-in Avropadan Azərbaycana keçmə ehtimallarının ola biləcəyi vurğulanır. Eyni zamanda Bakı sakininə İŞİD-ə qoşulmaq üçün pul təklifinin digər vətəndaşlara da edilə biləcəyi istisna edilmir və bu istiqamətdə hüquq-mühafizə orqanlarının fəaliyyətinin ciddiliyi qeyd olunur.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl hesab edir ki, 400 İŞİD-çinin Avropaya göndərilməsi ilə bağlı xəbər şişirdilib:** "Azərbaycan və digər yerlərdə İŞİD-ə qoşulmaq üçün böyük məbləğlərin təklif olunmasının bir sıra səbəbləri var. Son zamanlarda İŞİD böyük itkilər verir. Bunun yerini doldurmaq, yenidən hədə-qorxular gəlmək üçün aydın məsələdir ki, terror təşkilatı bu cür addımlar atır. Bunu təkcə Azərbaycanda deyil, bütün ölkələrdə edir. Bu məsələlərlə əlaqədar hələ ölkəmizdə bir nəfər müraciət edib. Ola bilsin ki, müraciət etməyənlər də var. Bu istiqamətdə ciddi tədbirlərin görülməsi çox vacibdir. İŞİD zəiflədikcə hədələrinin də, terrorlarının da sayı artacaq. Yerlərdə muzdlu döyüşçülər götürmək üçün belə təkliflərin edilməsi mümkündür. İŞİD-in Azərbaycana Avropadan daxil ola biləcəyi ilə bağlı deyilənlərə gəldikdə isə onu qeyd edə bilərəm ki, bu, tamamilə mümkündür. Yaxınlığımızda, Şimali Qafqazda İŞİD-in radikal qanadı var, üstəlik, Orta Asiyada da. Bu ərazilərdən xeyli sayda İŞİD tərkibində vuruşan şəxslərin olması bir reallıqdır. Onların Şimali Qafqazdan ölkəmizə keçmələri problem deyil. Amma onlara problem yaratmaq mümkündür. Gəlişlərinə imkan verilməyə bilər. Eyni zamanda ciddi nəzarət olunmalıdır. Bütün bunların hamısı onu göstərir ki, terror üçün cəhdlər olacaq. Bunun qarşısını almaq üçün Avropa konkret addımlar atmalıdır. Əks halda, kifayət qədər gərginliklər olacaq. Çünki İŞİD zəiflədikcə gərginliyi artıracaq. Bu gərginliyin bir qanadı da Azərbaycan ola bilər".

**Ekspert Azərbaycan hökumətinin bu istiqamətdəki hazırlıqlarına da toxundu:** "Bu məsələ ilə hüquq mühafizə orqanları məşğul olur. Hökumət, sadəcə, müvafiq strukturlar qarşısında tələblər qoyur. Bu tələbləri ilk növbədə, Dövlət Təhlükəsizlik Xidməti, ardınca isə digər qurumlar yerinə yetirməlidir. Hüquq-mühafizə orqanlarının ayıq-sayıqlığı artırılmalıdır. Türkiyə, İsrail və digər ölkələrlə qarşılıqlı fikir mübadiləsi aparılmalıdır. Gənc dövlət olduğumuzdan ola bilsin ki, kifayət qədər əməliyyat məlumatları olmasın. Amma adını qeyd etdiyim ölkələrdən bu məlumatları ala bilərlər. Yeni əməkdaşlıq və informasiya mübadiləsi vasitəsilə".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 1 (6616) 6 yanvar 2017



# "Mənə dəyməyən qurd..." siyasəti

Xalid KAZIMLI

**Dünyada nə tam ədalətli dövlət var, nə də elə bir insan. Hər kəs bu və ya digər şəkildə, hansısa məqamda, özünə sərf edən zaman ədalətsiz ola, ikili standarta yol verə bilir.**

Son vaxtlar baş verən müxtəlif səpkili hadisələr cəmiyyətimizin, dünya ictimaiyyətinin bu sağalmaz mərəzini vaxtaşırı büruzə verir.

Məsələn, Türkiyədə baş verən dəhşətli terror aktlarını götürək. Ölkəmizdə 1 yanvar teraktını qınayanlar və ona rəğbətlə yanaşanlar, "əcəb olub" deyənlər vardı.

Bir də xatırlayaq 10-15 il öncə Rusiyada çeçen terrorçuları tərəfindən törədilən "Nord-Ost", Beslan, Budyonovsk, Kizlar və digər terror aktlarını.

Bu gün Türkiyədəki terror aktlarını kəskin şəkildə qınayanlar, yəni biz, o vaxt dəhşətli hadisələr törədən çeçenlərin milli azadlıq mübarizəsinin tərkib hissəsi sayırdıq. O dövrün qəzetlərini açıb baxaq, bir yerdə də "çeçen terrorçular" ifadəsi yazılmayıb, bir qayda olaraq "mücahidlər" adlandırılıb, rəğbətlə yanaşılıb.

Sonrası necə oldu? Çeçenistanda sıxışdırılan həmin "mücahidlər"in bir hissəsi Əfqanıstana, Suriyaya, Türkiyəyə sızdılar, orada qruplaşdılar, "əl-Qaidə"yə, İŞİD-ə qoşuldular və "terrorçu" oldular.

Əslində onlar elə əvvəlcədən terrorçu idilər və adları hələ o vaxt, günahsız körpələri məktəbdə, tamaşaçıları teatrda girov götürəndə, metroda məsum insanları partladanda prinsipial şəkildə qoyulmalıydı. Fəqət separatçı çeçenlərin hədəfi Rusiya dövləti olunca, bunu normal sayanlar çox idi.

İndi Almaniya, Belçika, Fransa, Hollandiya və başqa ölkələr PKK terror təşkilatının Türkiyədə törətdiyi terror aktlarını "milli azadlıq mübarizəsi" çərçivəsində aparılan partizan mübarizəsi hesab edir, damğalamaqdan, mühakimə etməkdən çəkinirlər. Sabah PKK silahı onlara çevirsə, avtomatik "terror təşkilatı" kimi damğalanacaq.

Bu gün ABŞ Yaxın Şərqdə PKK-nı və digər kürd hərbi təşkilatlarını öz müttəfiqi sayır, halbuki onlar günlərin birində "əl-Qaidə" kimi nəzarətdən çıxa, silahı ABŞ-ın özünə çevirə bilərlər. O zaman ABŞ da valın o biri üzünü oxudacaq.

Amma İspaniya terrorizmi və separatizmi dəstəkləmir. Niyə? Çünki özü də bask və Kataloniya separatizmi ilə üz-üzədir, bir zamanlar bu ölkədə də vaxtaşırı "məxməri terakt"lar törədilirdi (partlayışlar olurdu, əmlaka ziyan vurulurdu, amma insan tələfatı olmurdu).

Fransa ötən ilə qədər İŞİD terrorizminə daha dözümlü yanaşırdı, sonradan özü zərbəyə məruz qalanda dünyanı ayağa qaldırdı, Parisdə Avropa liderlərinin terrora etiraz paradını təşkil etdi. Ancaq eyni və daha şiddətli terror aktı Ankarada, İstanbulda baş verəndə yenə təmkinli davrandı.

"Atəş düşdüyü yeri yandırar" kəlamının hikməti hər dəfə yerini alır. Bütün ölkələr məhz özləri terrora məruz qalanda həyəcanlanır, hamının terroru lənətləməsini tələb edirlər. Başqa vaxt "mənə dəyməyən qurd yüz il yaşasın" siyasəti yeridilir.

"Beynəlxalq terrorizm" adlı qurd isə növbəylə hamıya dəyir. Bin Ladenin adamları 2001-ci ildə ABŞ-da qaçırılmış təyyarələrlə əkiz göydələnləri, Pentaqonun binasını taran edib partladanda, "bu, ABŞ-ın problemidir" deyən ölkələr çox idi. Sonra onların bir xeylisi eyni problemlə üzləşəsi oldu.

Avropaya axışan miqrantlar məsələsində də ikili standartlar hökm sürür. Bəzi dövlətlər özləri miqrant qəbul etmədikləri halda mühacirləri qəbul etməyən, hətta qəbul edərkən obyektiv səbəblərdən qüsura yol verən dövlətləri tənqid edirlər. İngiltərənin Avropa Birliyindən çıxmasının əsas səbəblərindən biri də ölkənin birlik daxilində olarkən miqrant qəbuulu ilə bağlı öhdəliyi yerinə yetirməyə məcbur olmasıydı.

Bizim ölkəmizdə də Macarıstanda miqrantlara qarşı yol verilən qabalıqları qınayan xeyli adam vardı, ancaq sonradan məlum oldu ki, özümüz nəinki hər şeyini itirmiş miqrantların, heç böyük maddi imkanlara malik ərəb turistlərin ölkəmizə axınına təhəmmül edə bilmirik.

# ""Lənkəranski"ni mən öldürtmüşəm" deyən "qanuni oğru" kimdir?

"Rəşad Gəncinski"yə 2013-cü ilin fevralında "qanuni oğru" adını "Ded Xasan"ın yaxın qohumu "Timur Sverdlovski" verib

**Məşhur kriminal avtoritet "Rövşən Lənkəranski"nin qətli ilə bağlı yeni nüanslar ortaya çıxıb. Virtualaz.org xəbər verir ki, Rusiya hüquq-mühafizə orqanlarındakı mənbə "Rəşad Gəncinski" ləqəbli kriminal avtoritet Rəşad İsmayılov qanqsterlər arasındakı söhbətlərdən birində Canıyevi onun əmri ilə "o biri dünyaya göndərdiklərini" deyib.**





"Rəşad Gəncinski"



"Timur Sverdlovski"

"Rəşad Gəncinski" bildirib ki, "Lənkəranski"nin qətlinin motivi onun yaxın dostu, "göyərti kralı" kimi tanınan biznesmen Cambulat Şamiloğlunun öldürülməsidir.

Cambulat Şamiloğlunun güllələnməsi işinin istintaqının gedişi zamanı müəyyən olunub ki, bu işi R. Canıyevin qruplaşmasından olan iki killer həyata keçirib. Habelə məlum olub ki, Cambulatın öldürülməsi əmrini onunla münaqişədə olan "Lənkəranski" şəxsən verib.

Canbulat Şamiloğlu 2016-cı ilin 16 martında Moskvada, "Slavyan bulvarı" ünvanında yerləşən evinin qabağında qətlə yetirilib. C. Şamiloğlu Rusiya paytaxtına gətirilən topdansatış göy-göyərti biznesinə sahib idi. R.Canıyev və Canbulat arasında münaqişənin Moskva regionunun ən böyük topdansatış göyərti bazası üstündə başlandığı məlum idi. Amma Rusiya hüquq-mühafizə orqanları Canbulatın Rövşənin sifarişi ilə öldürülməsi versiyasını birmənalı təsdiq etmirdilər. Hətta bildirilirdi ki, "Lənkəranski" ilə münaqişədən istifadə edənlər Canbulatı aradan götürərək bu işi Canıyevə yönəldiblər.

Rəşad Gəncinski 1978-ci il martın 16-da Gəncədə anadan olub. 2013-cü il fevralın 11-də Moskva vilayətində keçirilən "sxodka"da "qanuni oğru" adını alıb. 2010-cu il sentyabrın 17-də 1 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda azadlıqdadır. "Rosbalt" bir müddət əvvəl məşhur azərbaycanlı kriminal avtoritet "Lotu Quli" (Nadir Səlifov) və "Vaqif Bakinski" kimi tanınan Vaqif Süleymanovun qruplaşmalarının birləşməsi barədə yazmış, "Rəşad Gəncinski"nin də onlara qoşulduğunu xəbər vermişdi. Bildirilirdi ki, "Rəşad Gəncinski" Moskvada iri ticarət mərkəzlərinə və topdansatış bazalarına malik olan iri azərbaycanlı biznesmenlərlə yaxın əlaqələrə malikdir.

Onunla bağlı məlumatlarda "qanuni oğru"adını bir il əvvəl ölən "Timur Sverdlovski" ləqəbli Timur Mirzoyevin xeyir-duası ilə alması diqqət çəkir. "Timur Sverdlovski" milliyyətcə yezidi kürd idi. O, 2012-ci ildə öldürülən məşhur kriminal avtoritet, "Ded Xasan" ləqəbli Aslan Usoyanın qohumu idi. Aslan Usoyan öldürüləndən sonra onun qruplaşmasına "Timur Sverdlovski" başçılıq edirdi. "Timur Sverdlovski"nin qruplaşmasında əsasən azərbaycanlı, kürd və gürcü kriminal avtoritetlər cəmləşmişdi.

Timur kriminal aləmdə "Ded Xasan" qədər məşhur olmasa da, 2012-ci ildə ABŞ prezidenti Barak Obamanın imzaladığı fərmanda onun da adı yer alırdı.

Həmin il ABŞ-ın Maliyyə Nazirliyi postsovet "bratva"sının 4 üzvünə qarşı sanksiyalar tətbiq edib. Onların arasında "Ded Xasan"ın Sverdlovsk vilayəti üzrə "smotryayişisi" olan Timur Mirzoyev da yer alırdı.

Xatırladaq ki, "Lənkəranski" ötən il avqustun 18-də İstanbulda güllələnib.

❑ "YM"



# Sevinc Babayevanın oğluna hökm oxundu - 15 il

**Sevinc Babayevanın oğlunun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Arvadını bıçaqlamaqda təqsirləndirilən Ayxan Məmmədova hökm oxunub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə A.Məmmədov 15 il müddətinə azadlıqdan məhrum edilib.**

Xatırladaq ki, prokuror A.Məmmədovun törətdiyi əmələ görə 15 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

A.Məmmədov Cinayət Məcəlləsinin 29, 120-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə ittiham olunub.

O, qısqanclıq zəminində arvadına 16 bıçaq zərbəsi vurub.

Xatırladaq ki, A.Məmmədov ABU-nun sabiq rektoru Elşad Abdullayevin yaydığı videolarda keçmiş deputat Gülər Əhmədova ilə onun arasında vasitəçi kimi iştirak edən Sevinc Babayevanın oğludur.

Həmin zaman S.Babayeva "İnterpol" xətti ilə axtarışa verilib. O, axtarışda olduğu vaxt Türkiyənin İstanbul şəhərində fəaliyyət göstərən hospitallardan birində ürək xəstəliyindən vəfat edib.

❑ İ.MURADOV

# Bakıda oğul atasını öldürdü

**Bakıda qətl törədilib. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayon sakini, 22 yaşlı Laçın Məmmədov spirtli içki üstündə aralarında yaranmış mübahisə zəminində atası, 52 yaşlı Mehman Məmmədovu bıçaqlayaraq öldürüb.**

Hadisəni törədən L.Məmmədov saxlanılıb.

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.

# Bayram günlərinin dəhşət statistikası- 11 nəfər dəm qazından, 20 nəfər yol qəzasında ölüb

**31 dekabr 2016-cı ildən 4 yanvar 2017-ci ilədək Azərbaycanda 11 nəfər dəm qazından zəhərlənərək ölüb. Bu barədə "İnterfaks-Azərbaycan" agentliyinə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

"Yanvarın 1-də Kamerun vətəndaşı Njonjoh Hans Ekumun Yasamal rayonu ərazisində kirayə yaşadığı evdə onun və həmyerliləri Nzemele Esambe Linus, Senan Hke, Takem Paul Atah və Nikvanti Nombe Levisevin üzərlərində zorakılıq əlamətləri görünməyən meyitləri tapılıb. Onların dəm qazından zəhərlənərək öldükləri ehtimal olunur. Onlardan iki nəfər Bakı Texniki Universitetin tələbəsi, üçü - futbolçu idi", - deyə məlumatda bildirilib.

Həmin gün Xətai rayonu ərazisində yaşayan Gürcüstan vətəndaşı Leyla Çopurova, Səbayel rayonu ərazisində yaşayan Cahangir Mustafayev və həyat yoldaşı Sevinc, Sumqayıt şəhərində yaşayan Zeynəb İsmayılova evlərində dəm qazından zəhərlənərək ölüblər.

"Bundan başqa, yanvarın 3-də Neftçala rayon sakini Səma Zeynallı paytaxtın Nəsimi rayonu ərazisində kirayədə yaşadığı evdə, yanvarın 4-də isə Səbayel rayonunda yaşayan Sədaqət Tokan evində dəm qazından zəhərlənərək ölüblər", - deyə məlumatda vurğulanıb.

Bayram günləri respublikada baş verən yol qəzalarının da statistikası açıqlanıb.

Daxili İşlər Nazirliyindən APA-ya verilən məlumata görə, 2016-cı il dekabrın 31-dən yanvarın 5-dək respublikanın avtomobil yollarında 27 yol nəqliyyat hadisəsi baş verib.

Nəticədə 20 nəfər ölüb, 37 nəfər xəsarət alıb.

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**1993-cü ilin dekabrından yanvarın 6-dək davam edən Horadiz əməliyyatının 24-cü ildönümü tamam oldu. Həmin gündərdə Azərbaycan ordusunun uğurlu döyüş əməliyyatları nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi, daha 20 yaşayış məntəqəsi, habelə Cəbrayılın Cocuq Mərcanlı kəndi düşmən tapdağından azad edildi. Həmin vaxt döyüşlər yanvarın sonunadək davam etmiş, Azərbaycan qoşunları Füzuli və Cəbrayıl rayon mərkəzinin yaxınlığına qədər irəliləsə də, bütün qüvvələrini toplayan düşmənin əks-hücumları və sərt hava şəraiti nəticəsində əməliyyat dayandırılıb. Lakin 2016-cı ilin aprel döyüşlərinə qədərki dövrdə Horadiz əməliyyatı ordumuzun ən uğurlu döyüş əməliyyatı olub. Qeyd edək ki, Horadiz əməliyyatı keçmiş prezident Heydər Əliyevin komandanlığı altında baş tutub. Horadizə Azərbaycan bayrağı sancılandan bir müddət sonra mərhum prezident özü də ora gedərək qəhrəman döyüşçülərlə görüşmüşdü.**



# Horadiz əməliyyatının 24 il saxlanan gizlinləri- kəşfiyyatçıdan ilginc açıqlamalar

## İlham Ağalar: "Horadiz əməliyyatından sonra Xocavənd və Hadrut rayonları tam şəkildə, digər ərazilər isə qismən boşaldılmışdı"

***

Bugünlərdə həmin tarixi qələbənin ildönümü ilə bağlı Horadiz şəhərində və digər yerlərdə tədbirlər keçirilir, həmin tarixi döyüş zamanı həlak olmuş qəhrəmanlarımızın Şəhidlər Xiyabanındakı məzarları ziyarət edilir. Qeyd edək ki, əməliyyatda qəhrəmanlıq göstərən 8 döyüşçümüz Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Əməliyyat komandiri, Horadiz qəsəbəsini işğalçılardan azad edən 702 saylı briqadanın komandiri polkovnik Şair Ramaldanov isə hazırda ehtiyatdadır. O, "Azərbaycan Bayrağı" ordeni ilə iki dəfə təltif olunan yeganə hərbçidir.

Qarabağ döyüşlərinin ən parlaq qələbələrindən olan Horadiz əməliyyatında iştirak etmiş döyüşçü ilə söhbətləşdik. Korpus kəşfiyyatının keçmiş komandiri, Horadiz əməliyyatında briqada əlahiddə **kəşfiyyat bölüyünün komandiri olmuş İlham Ağalar** "Yeni Müsavat"a dedi ki, adətən kəşfiyyatçılar bütün sirləri açmamağa üstünlük verir. Ancaq o, Horadiz əməliyyatı ilə bağlı indiyədək açıqlamadığı bəzi sirləri bölüşdü: "1993-1994-cü ilin qış kampaniyasında quzeydən Kəlbəcər, mərkəzdən Ağdam-Ağdərə və güneydən Füzuli istiqamətlərində olmaqla, üç cəbhədə hücum əməliyyatları planlaşdırılaraq həyata keçirildi. Onlardan ikisi son nəticədə uğur qazanmadığından bir çoxları bu döyüşlər barədə danışmağı "unudur". Amma "Horadiz əməliyyatı" kimi tarixə düşən üçüncü istiqamətdəki hücum təkcə həmin qış kampaniyasında deyil, ümumən bütün Qarabağ savaşında ən uğurlu əməliyyat kimi yaddaşlarda yaşayacaq".

**Horadiz əməliyyatının hazırlanmasında və planlaşdırılmasında aparıcı rol oynamış əlahiddə kəşfiyyat bölüyünə rəhbərlik etmiş İlham Ağalar qeyd etdi ki, yanvarın 5-də Horadizin işğaldan azad edilməsi ilə başa çatan hücumdan fərqli olaraq, bizim əməliyyatımız dayanmadı:** "Kəşfiyyatın fasiləsizlik tələblərinə tam şəkildə cavab verməklə öz fəaliyyətimizi Füzuli və Cəbrayılın böyük bir ərazisinə keçirib orada davam etdirməyi bacardıq. Yanvarın 5-də Quruçay boyunca yaratdığı möhkəmləndirilmiş mövqelərindən və Bəhmənli Horadiz ərazisindəki düşərgələrindən qaçmaqla canlarını qurtarmağa çalışan düşmənin Qafan briqadasının qarşısını almaq mümkün olmadı. 70 km qaçan düşmən əsgərlərini Cəbrayılın Soltanlı kəndində də saxlamaq, müqavimətini təşkil etmək mümkün olmağı üçün Dağtumas döngəsindəki və Həkəri körpüsü yanındakı yol dairəsində yerləşən hərbi polis postlarının yardımıyla onların qarşısını kəsməyə çalışırdılar. Yeri gəlmişkən, onu da deyim ki, düşmən arxasında fəaliyyət göstərən kəşfiyyatçı üçün bütün bunları seyr etmək, əgər sağ qalarsa, ona bütün ömrü boyu ləzzət almağa bəs edər".

**Keçmiş kəşfiyyatçının sözlərinə görə, uğurlu döyüş əməliyyatı ermənilərin o qədər sarsıdıbmış ki, hətta azad olunan ərazilər qat-qat geniş ola bilərmiş:** "Horadiz əməliyyatının yaratdığı ogünkü çaxnaşma səbəbindən Dağlıq Qarabağın Xocavənd və Hadrut rayonları tam şəkildə, digər əraziləri isə qismən boşaldılmışdı. Bizim hücumun istiqamətində yerləşən Ermənistanın Qafan və Gorus kimi iri şəhərlərində çaxnaşma fəsadlar törətməklə qalmamış və hətta paytaxt İrəvanda belə, qarşıqlıq hiss olunurdu. Düşmənin istifadə etdiyi radio dalğalarının bütün tezliklərində eşidilən "Horadis" və rusca "Qoradiz" sözləri heç kimin dilindən düşmürdü. Həmin danışıqların və əsir alınmış düşmən döyüşçülərinin etiraflarından əvvəl, düzü, onların yaşadığı qorxunun çox ciddi olduğunu biz özümüz də güman etmirdik".

**İ.Ağalar dedi ki, illər sonra düşmənin məşhur səhra komandirlərindən olan Rem Mərdanyan öz xatirələrində də bunu etiraf edib:** "Onun da etiraf etdiyi kimi, ildırım sürətli Horadiz əməliyyatı kütləvi qorxu yaradıb onları bir millət və dövlət kimi yox olma təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir təhlükənin reallığını həmin günlərdə qəbul edilmiş qərarların və görülən tədbirlərin miqyası da sübut edir".

**Keçmiş döyüşçünün dediyinə görə, o zaman Ermənistan hakimiyyəti bütün diqqətini Horadizə yönəltmişdi:** "Yanvarın 5-dən 6-sına keçən gecə düşmən ölkənin prezidenti Levon Ter-Petrosyan özünün hərbi müşaviri general-leytenant - sonralar general-polkovnik - Qurgen Dəlibaltyanı təcili olaraq döyüş bölgəsinə göndərdi. Düşmənin Horadiz-Beyləqan istiqamətindəki qruplaşmaları cənub-şərq cəbhəsi kimi tərcümə olunan hərbi qurumun tabeçiliyində birləşirdi. Füzulidəki Ağdam döngəsi deyilən yerin yaxınlığındakı məhkəmə binasında yerləşən həmin qurumun komandanı general-mayor Aroyanın kabinetində keçirilən müşavirədə Dəlibaltyan təcili tədbirlər görür. Həmin gecə ora yığışanlar arasında "Qarabağ qoşunları" komandanının müavini general İvanyan, həmin qoşunların qərargah rəisi, sonralar Ermənistanın müdafiə naziri olmuş Seyran Ohanyan, Qafan və Gorus briqadalarının komandirləri də yer almışdı. Yoxlanılmayan məlumatlara görə "Qarabağ qoşunlarının" komandanı Samvel Babayan və Ermənistanın o, vaxtkı müdafiə üzrə dövlət naziri Vazgen Sərkisyan da yanvarın 8-də Füzuliyə gəlib təhlükəni aradan qaldırmağa səy göstərib. Nəticədə 3-4 gün ərzində bölgəyə misli görünməmiş qüvvələr cəmləşdirildi". **Sabiq kəşfiyyatçı Ermənistanın Horadizi geri qaytarmaq üçün bütün ölkəni səfərbər etdiyini qeyd etdi:** "Bunlardan bizə məlum olanları sadalasaq, belə bir siyahi alınar: Mixail Qriqoryanın yenidən yığılan Qafan briqadası; Qubadlı ərazisində ehtiyatda dayanmış tam tərkibli Gorus briqadası, Samvel Oqanovun Stepanakert alayı, Artur Ağacanovun Hadrut alayı, Armen Mirzoyanın əlahiddə tank taboru, Jirenin (məşhur Jirayr Səfilyan-hazırda həbsdədir-E.P.) başçılıq etdiyi "Şuşa" daşnak dəstəsi; Movsesin Martuni alayı; Mehri və Çartaz alayları; Gümrüdəki tank əleyhinə alaydan gətirilən "Şturm-S" silahlarıyla təchiz olunmuş Artyuşun dəstəsi, Məjlum Manuçaryanın başçılığıyla 555 saylı Sovetaşen özəl qüvvətlər alayı; Ararat və Erebunu rayon polis şöbələrinin yığma dəstəsi. Buraya könüllü döyüşçülərdən ibarət Sisyan taborunu da əlavə etsək, mənzərə aydın olar. Onu da deyim ki, Qarabağ müharibəsi tarixində bu qədər qüvvənin bir cəbhəyə yığışmasını heç kim xatırlamır".



**Seçmə kəşfiyyatçılardan ibarət 20 nəfərlik qrupla düşmənin arxasına keçən kəşfiyyatçı döyüş xatirələrini danışır**

**Rəhbərlik etdiyi bölüyün üzərinə düşən tapşırıqdan bəhs edən İ.Ağalar dedi ki, onlar əməliyyatı planlaşdırıb icra edərkən düşmən arxasında daha çox qüvvə məhv etməyi planlaşdırıb:** "Məqsədimiz hücum edən qoşunlarımızın Horadizə qədər olan məsafəni maneəsiz keçməsinə imkan yaratmaq idi. Düşmən arxasında çaxnaşma salıb onu qorxutmaq, döyüş ruhunu qırmaq və nəticədə onu iflic edib ancaq canını qurtarmaq üçün qaçmağa məcbur etmək taktikasını təbii ki, nəzəri olaraq çoxumuz bilirdik. Ancaq birbaşa manevr qrupu təşkil edib ərazidə bu məqsədlə reyd keçirmək fikri öncə ağlımıza gəlməmişdi.

Yanvarın 5-də saat 06-52-də cəbhə xəttindən 30 km-ə qədər dərinlikdə yerləşən operativ-taktiki ərazidə, təsadüfən qarşılaşdığımız topçularla apardığımız döyüş nəticəsində bu qərarı qəbul edərkən belə olacağını gözləmirdim. Seçmə kəşfiyyatçılardan ibarət 20 nəfərlik qrupla mərkəzi Horadiz olan böyük bir ərazidə sürətli reyd keçirməyin özünəməxsus çətinlikləri var idi. Qarşına harada və hansı qüvvələr çıxacağını gözləmədən, heç bir basqın planı qurmağa macal tapmadan manevr etmək kəşfiyyatçıdan yüksək hazırlıq və cəsarət tələb edən bir işdir. Qısa vaxtda və tamamilə müxtəlif yerlərdə bizimlə qarşılaşan düşmən bunların eyni qrup olduğunu ağlına gətirmirdi. Bütün ərazinin Azərbaycan ordusu tərəfindən alındığını güman edən düşmənin canını qurtarmaqdan başqa çarəsi qalmadı".

**Müharibə veteranı bildirdi ki, əməliyyatda sürət faktoru əsas rol oynayıb və bizə uğurlu nəticə qazandırıb:** "Düşmənin yaşadığı panika, gördüyümüz kimi, heç də sonsuza kimi davam edə bilməzdi. Onun qruplaşması üçün tələb olunan vaxt burada bizim zərərimizə işlədiyi üçün hücum ildırım sürəti ilə həyata keçirilməli idi. Əlbəttə, biz bunu unuda bilməzdik. Düşmən arxasındakı desant qruplaşmanın komandiri kimi bizim hücum edəcək qoşunlarımızın Horadizə hansı sürətlə gəlib çıxması məni çox maraqlandırırdı. Burada bütün Qarabağ müharibəsində qazandığımız acı təcrübəni unutmadığımı qeyd etməliyəm. Yanvarın 4-də, saat 18-də, Daşburundakı hərbi hissədə keçirilən əməliyyat müşavirəsində hamıya qarşısına qoyulmuş vəzifələr açıqlanarkən mən polkovnik Şair Ramaldanova bircə sual vermişdim. Əməliyyatın hazırlanması və planlaşdırılması birbaşa bizim iştirakımızla keçirildiyi üçün verdiyim bu sualdan qeyri mənim nəyisə bilməmə ehtiyac qalmamışdı. "Bizə ərazini saxlamaq üçün nə qədər vaxt nəzərdə tutursunuz" sualını verəndə müşavirə iştirakçıları da mənimlə birlikdə Şair müəllimin bu cavabını gözləyirdi. Polkovnik Ramaldanov mənə "dörd saat kifayətdir. Saat 07-də əməliyyat başlayır, saat 11-də biz sizin yanınızdayq" deyəndə mən dönüb təkcə ona deyil, bütün iştirakçılara "onda sizinlə Horadizdə görüşərik" deməklə müşavirəni tərk eləmişdim. Cəbhə xəttindən Horadizə qədər olan yolun uzaqlığını nəzərə alıb mənim müşavirədən yarımçıq çıxmağıma icazə vermişdilər. Qoşunlarımızın bizim yanımıza - Horadizə gəlməsi üçün dörd saat deyil, səkkiz saata yaxın bir vaxt sərf etməsinə baxmayaraq, mən yenə də bu əməliyyatı ildırım sürətli hücum kimi qiymətləndirirəm. Düşmənin möhkəmləndirilmiş mövqelərdən ibarət cəbhə xəttini yarması və 30 kilometrə kimi irəliləməsini heç kim belə təsəvvür edə bilməzdi".

**Maraqlıdır, qoşunlarımız hansısa səbəbdən gəlib çıxmasaydı, yaxud əməliyyat hansısa bir səbəbdən baş tutmasaydı, o halda düşmənin arxasına keçmiş kəşfiyyatçıların taleyi necə olacaqdı? İ.Ağalar:** "Təbii ki, biz də bu barədə düşünmüşdük. Düşünüb vəziyyətdən çıxmaq üçün variant da nəzərdə tutmuşduq. Hətta iki mərhələdən ibarət ehtiyat variant da düşünmüşdük. Bu variantları tam şəkildə özümdən başqa yalnız yardımçım olan baş leytenant Oruc Quliyev bilirdi. Hətta birinci pusqu qrupunun komandiri leytenant Səhyəddin Namazov və ikinci pusqu qrupunun komandiri baş leytenant Kamal Zülfüqarov təkcə ehtiyat toparlanma yeri və birinci etap haqqında məlumatlandırılıb, sonrakı mərhələdən xəbərsiz qalmışdılar. Belə bir planın mövcudluğunu mən ilk dəfədir ki, etiraf edirəm. Amma yenə də həmin planı tam açıqlaya bilmərəm".

**Keçmiş döyüşçü bildirdi o zaman, kiçik imkanlara malik olduğu halda tarixi bir zəfərə imza atan ordumuzun indiki durumda düşmənə məğlubiyyət yaşatması tam realdır.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017

**İranla Azərbaycan arasındakı Astara gömrük məntəqəsində müşahidə olunan sıxlıq bu ölkəyə getmək istəyən vətəndaşları narahat edən ən önəmli məsələlərdən biridir. Vəziyyət o həddə çatıb ki, bu sıxlıqda vətəndaşların həyatına da təhlükə yaranıb. Belə ki, dekabrın 28-də Astara Gömrük Məntəqəsində İrana getmək istəyən Azərbaycan vətəndaşı İlqar Kərimov vəfat edib. Azadliq.org-un yaydığı məlumata görə, onun ürəktutmadan öldüyü güman edilir.**

# Sərhədyanı bölgələrin əhalisi ərzağa görə İrana axışır

## Bu bölgədə yaşayanların bir çoxu gündəlik tələbat məhsullarını ucuz qiymətə almaq məqsədilə qonşu ölkə ərazisinə gedir




Hadisənin şahidinin sözlərinə görə, hadisənin səbəbi gömrük məntəqəsində yaranan sıxlıq olub. Astara Gömrük İdarəsində isə İlqar Kərimovun növbədəki sıxlıq üzündən ölməsi fikri ilə razılaşmayıblar.

Lakin istənilən halda burada sıxlığın olması heç kimə sirr deyil. Birinci səbəb İrana üz tutan vətəndaşların sayının artmasıdırsa, ikinci səbəb gömrük məntəqələrində işin normal qurulmamasıdır.

**İqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan vətəndaşları əsasən 3 səbəbdən İrana üz tuturlar:** "Birinci səbəb odur ki, Naxçıvanla Azərbaycan arasında birbaşa quru yolu ilə əlaqə məhz İran üzərindən mümkündür. Bu baxımdan da gündəlik 5-7 min nəfər insan gömrüyü məhz bu məqsədlə keçir. Həm Naxçıvan tərəfindən İran ərazisinə keçir, həm də Astaradan Bakıya daxil olur. İkinci səbəb isə odur ki, sərhədyanı bölgələrdə yaşayan vətəndaşların bir çoxu gündəlik tələbat məhsullarını ucuz qiymətə almaq məqsədilə İran ərazisinə gedirlər. Bəzi hallarda bu səfərlər kiçik sahibkarlıq məqsədi də daşıyır. Belə ki, İrandan alınan məhsullar Azərbaycanda lokal səviyyədə bazara çıxarılır. Üçüncü səbəb səhiyyə ilə bağlıdır. İranda səhiyyə xidmətlərinin keyfiyyətli olması, eyni zamanda qiymətlərin Azərbaycanla müqayisədə aşağı olması səbəbindən maddi imkanları aşağı olan vətəndaşlar bu ölkəyə üz tuturlar. Bu da son nəticədə İranla Azərbaycan arasındakı sərhəd gömrük məntəqəsində sıxlığın yaranmasına səbəb olur".

**Ekspetin sözlərinə görə, burada yaranan sıxlığın əsas səbəbi sərhəd keçid məntəqələrində gömrük xidmətinin işini lazımınca yerinə yetirə bilməməsidir:** "Qonşu ölkələrlə, xüsusilə də Gürcüstanla, Türkiyə ilə müqayisədə Azərbaycan gömrük keçid məntəqələrinin buraxılış gücü çox aşağı səviyyəyədir. Bu da peşəkar yanaşmadan istifadə edilməməsi, vətəndaşların seleksiya üsulu ilə yoxlanmasının təmin edilməməsi və sair səbəblərdən qaynaqlanır. Həmçinin məmurların bilərəkdən hansısa prosesdə çətinlik yaratması, kobud davranışlar, vətəndaşların bir çox hallarda növbə qaydalarına riayət etməməsi və sair bu kimi səbəblərdən bugünkü dövrə layiq olmaya hallar müşahidə olunur. Daha çox hökumət çalışmalıdır ki, bu vəziyyət aradan qalxsın. İran tərəfdə də gömrükdə problemlər var. Bu ölkəyə səfər edən vətəndaşların fikirlərindən məlum olur ki, İranın məmurları Azərbaycan vətəndaşları ilə , xüsusilə də bu ölkəyə tez-tez gedib gələn, orada tanına insanlara qarşı kobud rəftar edirlər. Bu kimi hallar var. Bir çox hallarda ölkəyə gətirilməsi qanunla məhdudlaşdırılan məhsulların axtarışı ilə bağlı da proses uzanır".

**Rəşad Həsənov qeyd etdi ki, bu ölkəyə gedən sadə vətəndaşların məqsədi daha ucuz məhsul almaqla gündəlik tələbatını ödəmək, bu yolla həyat tərzini yaxşılaşdırmaqdır:** "Bəzi insanlar isə bu məhsulları həm də satış məqsədilə gətirir. Onların arasında fərqi tapmaq gömrük məmurları üçün çətindir. Burada qanunvericiliklə tətbiq olunan kriteriyalar da qeyri-müəyyən olduğu üçün məmur vətəndaşın məhsulu şəxsi istehlak, yaxud biznes məqsədilə gətirdiyini öyrənməkdə çətinlik çəkir. Bütövlükdə götürəndə bu kompleks problemlər gömrük-keçid məntəqələrində müşahidə olunan vəziyyətlə nəticələnir.

İrandan əsasən gündəlik tələbat məhsulları kimi yağ, qənd, şəkər tozu, çay gətirilir. Biznes məqsədilə isə son vaxtlar əsasən siqaret gətirilir.

Bu problemlərin həlli üçün hər iki tərəf öz fəaliyyətini təkmilləşdirməlidir".

**İqtisadçının sözlərinə görə, Azərbaycanda ümumiyyətlə bütün istiqamətlərdə gömrük xidməti zəif təşkil olunur və bunun təkmilləşdirilməsi zəruridir:** "Bu, Gürcüstan-Azərbaycan, Rusiya-Azərbaycan gömrük keçid məntəqələrində də müşahidə olunur. Azərbaycanda proses ləng gedir. Gürcüstan gömrük keçid məntəqəsi 50 nəfər vətəndaşı yola saldığı halda, Azərbaycanda 5 nəfər yola salınır. Və ya Gürcüstan tərəfdə sıxlıq olmadığı halda, Azərbaycan tərəfində tətbiq olunan metodologiya səbəbindən, məmurların qeyri-peşəkarlığı səbəbindən sıxlıq müşahidə olunur. Azərbaycanda gömrük keçid məntəqələrinin təkmilləşdirilməsinə ehtiyac var. Əgər hökumət ölkənin tranzit əhəmiyyətini artırmaq, turist axınını sürətləndirmək istəyirsə, gömrük keçid məntəqələrinin fəaliyyətini müasir tələblərə uyğunlaşdırmalı və daha çevik mexanizm tətbiq etməlidir. Əks halda, bir dəfə bu xidmətdən istifadə edən turist ikinci dəfə ölkəyə gəlməyəcək. Yerli vətəndaşlar isə gündəlik həyat tərzini İrandan təmin etdikləri üçün buna məcburdurlar. Hökumət gömrük keçid məntəqələrində prosesi sürətləndirməklə ən azından bu insanların da yaşam çabalarına dəstək vermiş olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Xoruz ili dollara düşərli oldu

## İlin ilk valyuta hərracında manat yenə ucuzlaşdı; proqnozlar bədbindir



**Xoruz ili dollar üçün düşərli olub. Federal Ehtiyatlar Sisteminin (FED) uçot dərəcəsinin artırılması ilə bağlı qərarından sonra ABŞ dollarının indeksi 102,62 səviyyəsinədək möhkəmlənməyi bacarıb ki, bu da 2003-cü ilin yanvar ayından etibarən ən yüksək göstəricidir.**

Avro isə dollara nisbətən 0,3% ucuzlaşaraq 1,0503 dollar səviyyəsində müəyyənləşib. Bundan öncə Avrozonanın vahid valyutası 21 aylıq minimuma, yəni 1,0468 dollar səviyyəsinədək enib.

FED-in qərarından sonra Yaponiya valyutası da yeni 10 aylıq minimuma enib.

Funt sterlinq 0,28% zəifləyərək 1,2530 dollar səviyyəsində qərarlaşıb. Çin yuanının dollara nisbətən məzənnəsi 2008-ci ilin ortalarından etibarən ən aşağı həddə enib.

Milli valyuta olan manat isə 2017-ci ilin ilk iş günündə yenə ucuzlaşıb. Yeni ilin ilk valyuta hərracında dollar bahalaşıb və nəzərlər manatın üzərindədir. Manatın özünü necə aparacağı barədə ehtimalların əksəriyyəti pessimistdir.

Mərkəzi Bankda Dövlət Neft Fondunun da iştirak etdiyi növbəti ikitərəfli valyuta hərracı keçirilib və hərrac 1 ABŞ dolları üçün 1,7707 məzənnəsi ilə başlayıb, 1,7742 məzənnəsi ilə yekunlaşıb. Başqa sözlə, qiymət artımı 0,2 faiz və yaxud 0,0035 manat təşkil edib. Ekspertlər manatın növbəti aylar üçün vəziyyətinin heç də yaxşı olmayacağını proqnozlaşdırırlar.

**Ekspert Natiq Cəfərli bildirib ki, rəsmi məzənnə dəyərini itirir:** "İlin ilk hərracı bitdi, dolların rəsmi məzənnəsi 1,7742 oldu, yəni yenə bahalaşdı. Belə çıxır ki, Mərkəzi Bank yenə hər hərracda tələbdən dəfələrlə az valyuta çıxartmaqda israrlıdır, bu addım isə qara bazarı təşviq edəcək, rəsmi məzənnə önəmini itirəcək. Mərkəzi Bankın əsas işi sərbəst valyuta alış-satışını bərpa etmək olmalıdır, yoxsa qiymətlər daha sürətlə artacaq, mağazalar, aptеklər getdikcə boşalacaq, olan-qalan investorlar da ölkədən qaçıb-gedəcək, rəsmi məzənnə ilə real məzənnə arasında fərq böyüyəcək. Mərkəzi Bank 4 faizlik, artıq mənasını itirmiş məzənnə marjını ləğv etməli, banklara sərbəstlik verməli, valyutadəyişmə məntəqələrinin yenidən açılmasına şərait yaratmalıdır. Başqa yol yoxdur, ölkəni məzənnə siyasətində Türkmənistana, Özbəkistana çevirmək olmaz, bu, daha təhlükəlidir".

**Ekspert Qubad İbadoğlu isə bildirib ki, bu il ərzində manatın sabit qalmayacağı şübhəsizdir:** "Fikrimcə, il ərzində manatın dollara nəzərən məzənnəsi 3 ssenaridən birində inkişaf edə bilər. Ən yaxşı ssenaridə 1 dollara görə manatın orta məzənnəsi 2 manat 20 qəpik, orta ssenaridə 2 manat 50 qəpik, pis ssenaridə isə 2 manat 80 qəpik ola bilər. Bir sözlə, manatın dollara nisbətdə məzənnəsi üçün dəhliz 2 manat 20 qəpiklə 2 manat 80 qəpik arasında müəyyənləşə bilər. 2017-ci ildə manatın gerçək məzənnəsi formalaşmayınca ölkəyə kapital cəlb etmək və iqtisadiyyatı sabitləşdirmək mümkün olmayacaq. Bunun üçün də iqtisadi sahədə struktur və institutsional, eləcə də dövlət idarəetməsində inzibati və məhkəmə islahatları aparılmalı, milli iqtisadiyyatın liberallaşdırılması, sağlam rəqabətin dəstəklənməsi və yerli özünü idarəetmə keyfiyyətcə yeni mərhələyə daxil olmalıdır. Gözlənilən dəyişikliklər yalnız müstəqil vətəndaş cəmiyyəti və azad mətbuatın dəstəyi ilə səmərə verə bilər. Bu da o deməkdir ki, iqtisadi və siyasi islahatlar birlikdə aparılmalıdır".

**Ekspertin sözlərinə görə, bu ilin iqtisadiyyatından gözləntilər müsbət deyil:** "Hətta rəsmi statistik məlumatlarda da ötən il ərzində Azərbaycan iqtisadiyyatı 4 faizə qədər kiçildi, ərzaq inflyasiyası 15 faizi ötdü, 50 mindən çox iş yeri bağlandı. Azərbaycan iqtisadiyyatı MDB məkanında ili tənəzzüllə başa vuran Belarus və Rusiya ilə nəinki eyni siyahıda yer aldı, hətta bu qara siyahıya liderlik etdi. Beləliklə də start vəziyyəti gözlənildiyindən də xeyli pis olan 2017-ci il üçün nikbinlik yaratmır. Pis göstəricilərlə 2017-ci ilə keçid edən milli iqtisadiyyatın yeni gerçəkliyin və tələblərinin əsas yükünü aztəminatlı əhali və azad sahibkarlar çəkəcək. İlin birinci yarısı daha ağır olacaq. Bu dövr ərzində iqtisadi böhran büdcə böhranına da gətirib çıxaracaq. Çünki azalan idxal, zəifləyən iqtisadi fəallıq büdcənin mədaxilinin proqnoz səviyyəsində formalaşmasına problemlər yaradacaq. Bu da xüsusilə də 1-ci rübdə büdcədən maliyyələşən təşkilatlarda əmək haqqı və pensiyaların vaxtında verilməsində ciddi çətinliklər yaradacaq".

**Q.İbadoğlunun sözlərinə görə, ilin ən böyük problemi işsizlik və inflyasiya olacaq:** "İş yerlərinin ixtisarı 2017-ci ildə də davam edəcək. Bu il ərzində daha çox ixtisaslı işçilər işlərini itirəcəklər və bu da əmək bazarında iş yerləri uğrunda rəqabəti daha da kəskinləşdirəcək. İnflyasiyaya gəlincə, qiymətlərə artırıcı təsir göstərən mövsümi amillər və inhisarçı şirkətlərin müraciəti əsasında bahalaşan tariflər olacaq. İl ərzində enerjidaşıyıcılarının, kommunal xidmətlərin, nəqliyyatda gediş haqlarının bahalaşması ilə bağlı Tarif Şurasının yeni qərarları olacaq. Bu və digər amillərin təsiri ilə 2017-ci ildə də inflyasiya iki rəqəmli olacaq".

**Ekspert qeyd edib ki, 2017-ci ildə maliyyə və bank sektorunun çətinlikləri davam edəcək:** "Maliyyə Bazarlarına Nəzarət Palatasının bankların xərclərinin artımını şərtləndirən yeni qərarlarının bu ildən icraya yönəlməsi bankların və qeyri-bank kredit təşkilatlarının manevr imkanlarını məhdudlaşdıracaq. Əldə etdiyi gəlirlərlə xərclərini tənzimləmək sahəsində problemlərlə üzləşən əmanətçilər və kreditorlar qarşısında öhdəliklərini vaxtında yerinə yetirməyən bir neçə bankın lisenziyası geri alınacaq, həm bank və həm də bank olmayan kredit təşkilatları fəaliyyətlərini dayandırmaq və birləşmək məcburiyyətində qalacaqlar".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017



# Böhranlı ölkənin bayram günlərində dolub-daşan əyləncə məkanları...

## Azərbaycanlılar bütün pullarını Yeni il tətilində xərclədilər?

**Geridə qoyduğumuz bayram günləri yaddaşımızda daha çox "sinfi bərabərsizliklə" qaldı. Aylardan bəri davam edən iqtisadi böhran bayram günlərində əhalinin əyləncə seçimlərinə də təsir göstərdi. Necə deyərlər, hərə öz cibinə, maddi durumuna uyğun istirahət növünə üstünlük verdi. Kimi xaricdə, kimi ölkə sərhədləri daxilində...**

Amma bu arada diqqəti çəkən əsas mənzərə Bakıdakı restoranlardakı alışıb-yanan Yeni il menyusu qiymətləri idi. Bir neçə restoranla bağlı qiymətləri yada salaq: "Fairmont Baku"da yerləşən restoranlarda Yeni il gecəsi:

"BISTRO LE SAM"

1 nəfər - 90 manat

Uşaqlar - 7-12 yaş 50 faiz endirim

7 yaşdan aşağı pulsuz

"Alov Restaurant and Jazz Bar"

1 nəfər - 150 manat

"Fairmont Gold" - bu restoran yalnız xüsusi qonaqlar üçün fəaliyyət göstərir. Yeni il gecəsində burada qiymətlər:

1 nəfər: 250 manat

"JW Marriott Absheron Baku"da restoranlar:

Otelin birinci mərtəbəsində təşkil olunan Yeni il şənliyində 1 nəfər - 95 manat.

Otelin yuxarı mərtəbələrində yerləşən restoranlarında qiymətlər:

2 nəfər - 130 manat təşkil edir.

SEA BREEZE

"Shore House" restoran

1 nəfər - səhnəyə yaxın məsafəyə görə, 150-200-250 manatdır.

8 yaşa qədər uşaqlar pulsuzdur. 8-14 yaş isə 100 manatdır.

Daha çatımlı hesab olunan restoranlarda da qiymətlər heç də aşağı deyildi. Məsələn, "Yeganə" restoranında qiymətlər 150 manatdan 250 manatadək dəyişirdi. "Sərin" restoranında isə menyunun qiyməti 150-250 manat idi. "Neon Palace"da da qiymətlər 120-150 manat arası dəyişdi. "Flaminqo" restoranında biletlər 80-100 manat arasında olub. "Neolit"də isə qiymətlər bayram gecəsi üçün 150 manat təşkil etdi.

Gördüyünüz kimi, rəqəmlər heç də sıradan deyil. Amma şəhərdəki mənzərə, tıxaclar, eləcə də sosial şəbəkədə insanların əyləncə fotoları bu bayramın əyləncəli, məsrəfli, böhran qayğısından uzaq keçirildiyini sübut edirdi. Daha bir məqam isə şəhərdəki AVM-lərdəki durumla bağlıdır. Bayram günlərində yolunu bu məkanlara salan paytaxt əhli kafe və restoranlarda oturmağa yer tapmırdı. Qəribə mənzərə yaranmışdı: insanlar əllərində yemək dolu padnoslarla başqa birinin boşaldacağı masanı səbirsizliklə gözləyirdi. Bu, oradakı bütün restoranlar üçün keçərli idi.

Bayram günlərində Azərbaycanın istirahət bölgələrinə yolu düşənlər üçün də mənzərə fərqli deyildi. Xüsusən Quba, Qusar, Qəbələ kimi bölgələrə axın edənlərin sayı çox idi. İnsanlar Şahdağ, Tufandağ kimi qış komplekslərinə maraq göstərirdilər. Sözügedən məkanlarda istirahət etməksə ciddi məsrəf deməkdir, gedənlər bilir. Təkcə bir nəfərin kanata minməsi 12-18 manata başa gəlir. Hələ digər məsrəfli xidmətlərdən danışmırıq. Məsələn, Şahdağa gələnlər eyni zamanda xizək izi maşınında da gəzirlər. Onun 1 saatı isə uşaqlar üçün 16 AZN, böyüklər üçün 26 AZN-dir. Hesab edək ki, kimsə sadəcə kirşədə sürüşmək istəyir. Bu halda kirşə kirayələmək mümkündür. Sadə kirşələr 15 AZN, taxta kirşələr 20 AZN, dəmir kirşələr 30 AZN təşkil edir. Aeroxizək turu istəyənlər isə onun 10 dəqiqəsi üçün 21 AZN, 20 dəqiqəsi üçün 36 AZN ödəmək lazımdır. Əməkdaşımız bayram günündə Şahdağ Turizm Kompleksində boş otel nömrəsi tapa bilmədi. Ona bütün otaqların daha öncədən, xüsusən də ərəb turistlər tərəfindən bron edildiyi deyildi.





Gördüyünüz kimi, söhbət kiçik rəqəmlərdən getmir. O halda bu suallar yaranır: Böhran varsa, insanların əyləncəsinə niyə təsir etmir? İmkansızlıq hansı təbəqəni vurur? Əhali kasıbdırsa, əyləncə məkanlarını, gəzinti yerlərini, alış-veriş məkanlarını dolduranlar kimdir?

Ekspert rəylərinə keçmədən bəzi nüanslara nəzər yetirək. Birincisi və ən önəmlisi, ildə bir-iki dəfə baş verən bu bayram tətilləri üçün insanlar öncədən hazırlıq görürlər. Məsələn, bir neçə ay öncədən Yeni il tətili üçün pul yığan çoxlu sayda insan var. Adı üstündə - bayram. İnsanlar şərtlərdən asılı olmayaraq, bayramda hər şeyin qaydasında olmasına çalışırlar.

Daha bir məqam isə hazırda dükan-bazardakı bahalıqdır. İnsanlar orta səviyyəli bayram alış-verişi üçün 150-200 manata yaxın xərc çəkirlər. Bunun üzərinə də xanımların mətbəxdəki əziyyətini gələndə... "bayırda bayram keçirmək" az qala şərtə çevrilir. Necə deyərlər, evdə bayram keçirmək heç də havayı başa gəlmir.

Keçək digər nüansa. Bakı əhalisinin 3 milyona yaxın olması faktoru bu qələbəlikdə mühüm rol oynayır. Şəhər kiçik, əyləncə məkanları az, insanlar isə çoxdur. İnsanların gedə biləcəkləri məkanların sayı iki əlin barmaqlarının sayı qədərdir. Uşaqların əyləncə məkanları, alış-veriş ünvanları da onun kimi. Bu halda toqquşma, basabas, insan qələbəliyi mənzərələri də qaçılmazdır.

Psixoloji araşdırmalar isə sübut edir ki, belə məqamlarda insanlar daha çox "bir günün sevinci" prinsipinə üstünlük verirlər. Onsuz da qarşıdan çətin günlərin gələcəyindən əmin olan insanlar bir neçə saat belə olsa, həyatdan zövq almaq istəyir. Bundan başqa, "qonşudan geri qalma" məsələsinin də yeri var. Sosial şəbəkələr, telekanallar bu məsələdə olduqca güclü faktordur. Hər kəs bir-birinin istirahət, əyləncə fotolarına baxdıqca imkanı zəif olsa da, hansısa formada əyləncə variantı tapır. Azərbaycanlıların ailəcanlı, uşaqcanlı olması faktoru isə bu məsələlərdə ciddi faktor sayılır. Hər kəs ilk növbədə uşağının əyləncəsini, sevincini nəzərə alıb, büdcəsindən müəyyən fədakarlıqlar edir.

**İqtisadçı Qubad İbadoğlu isə "Yeni Müsavat"a müsahibəsində bu məqamla bağlı ilginc tezislər səsləndirib:** "İnsanların bir qisminin sosial vəziyyəti pisləşib, onlar güzəranlarından narazıdırlar. Çünki yaşam şərtləri ağırlaşıb, xərclər artıb, insanların gəlirləri azalıb, məsrəfləri qarşılamaq imkanları məhdudlaşıb. Ancaq cəmiyyətin elə təbəqələri də var ki, onların sosial vəziyyətində dəyişiklik yoxdur, yenə də əvvəlki israfçılıqlarına davam edirlər, istirahətlərini təşkil etmək üçün yüksək məbləğdə pul xərcləyirlər. Bir tərəfdə yoxsullaşma gedir, digər tərəfdə isə insanlar israfçılığa davam edirlər. Bu artıq cəmiyyətdə qanunauyğunluğa çevrilib".

İqtisadi analizlər isə onu göstərir ki, bu gün kafe-restoranlarda, əyləncə məkanlarında gördüyümüz azərbaycanlılar əhalinin kiçik bir faizini təşkil edir. Necə deyərlər, 9 milyonluq əhalinin 100-150 mini o formada əylənirsə, bunu heç də bütün kəsimlərə şamil etmək mümkün deyil. Bütün hallarda keçmiş bayramımız mübarək və hər zaman əylənməyə, xoş saatlar keçirməyə imkanımız olsun.

❑ **Sevinc TELMANQIZI**

# "İntiharları araşdıran qurum yaradılmalıdır"

## Ekspertlər ilk növbədə suisidlərin səbəblərini araşdırmağı zəruri sayırlar



**Azərbaycanda intiharların sayı durmadan artmaqdadır. Rəsmi statistikalardan da məlum olur ki, hər gün ən azı 1-2 nəfər intihar edir. Təkcə bu ilin yanvar ayının ilk günlərində ölkənin paytaxt və regionlarında çoxsaylı intihar hadisələri baş verib. Onların arasında gənci də, yaşlısı, qocası da var.**

İntihar səbəblərinə gəldikdə isə bəzən bu səbəblərin çox kiçik və sadə, həll edilə bilən problemlərdən qaynaqlandığını görürük. Psixoloqlar isə qeyd edir ki, üzdə olan intihar səbəbi əksər hallarda əsl səbəb olmur, onu yaradan digər nüanslar var.

**Bu mövzuda söhbət etdiyimiz psixoloq Azad İsazadə** "Yeni Müsavat"a açıqlamasında intiharları yaradan müxtəlif səbəblər olduğunu, onları araşdıran xüsusi bir qurumun yaradılmasına böyük ehtiyac olduğunu bildirdi: "Bəli, bu gün intiharların sayı çoxdur. Həyatda baş verən hər bir hadisə intihara gətirib çıxarda bilər. Sadəcə, möhkəm psixoloji müqavimət göstərə bilən insan hansısa səbəbdən intihara əl atmır, amma digəri özünə qəsd edir. Məsələn, ilk məhəbbət intiharları az deyil. Ancaq o demək deyil ki, bütün eşq-məhəbbətlə qarşılaşan insanlar intihara əl atır. İmtahandan kəsilən yüz nəfərdən biri intihar edir və sairə. Yəni bunlar təkcə görünən səbəb deyil. Deməli, arxada nəsə var. İntiharı yaradan kompleks səbəblər olur, axırıncı xırda səbəbi isə əsas səbəb kimi görürük. Ona görə qeyd edirəm ki, bütün bunları araşdırmaq lazımdır. İnsanlar arasında region, cins, yaş və digər sairə məsələlərlə bağlı fərqlər var. Hətta intiharların formaları arasında fərqlər mövcuddur".



Azad İsazadə

**Psixoloqa görə, bunların hamısını dəqiqləşdirmək, araşdırmaq lazımdır:** "Bu gün ancaq subyektiv deyə bilərik ki, intiharların sayı çoxalıb. Amma hansı yaş, cins qruplarında, rayonlar arasında necə baş verir, bunu deyə bilmərik. Bu məlumatı araşdırsaq konkret risk qruplara qarşı tədbirlər həyata keçirə bilərik, məsləhətlər edilə bilər. Gənclər və İdman, Səhiyyə nazirliklərinə, hansısa ayrı-ayrı qurumlara məsləhətlər verə bilərik ki, bu yaş qrupunda təhlükə var və bununla bağlı filan məsləhətlərə ehtiyac var".

**Psixoloqun sözlərinə görə, hələ keçmiş SSRİ-nin Səhiyyə Nazirliyinin tərkibində İntihar Araşdırma Mərkəzi mövcud olub. Həmin mərkəzdə psixoloqlar, psixiatrlar, hüquqşünaslar araşdırmalarla məşğul olublar:** "Hazırda Qərb ölkələrində belə qurumlar var. Onlardan kimi qeyri-hökumət təşkilatları kimi, kimisi psixoloqların tərkibində və yaxud dövlətə məxsus mərkəzlərdə fəaliyyət göstərir. O demək deyil ki, bu, hansısa bir qurum olsun. Bir neçə təşkilat birləşib lazımi araşdırma işini birgə aparmalıdırlar. Burda hüquqşünaslar, psixoloqlar, müəllimlər, həkimlər və bir neçə peşə adamları birləşib birgə tədbirlər hazırlamalıdırlar".

**Hüquq müdafiəçisi Novella Cəferoğlu belə bir qurumun yaradılması ilə bağlı artıq təkliflər hazırlandığını bildirdi:** "Həm intiharlar, həm də zorakılıqlar çoxalıb. Baxmayaraq ki, qanunla qəbul edilib, amma kişilər öz arvadlarını öldürür, eyni zamanda əksinə, qadınlar kişiləri öldürür, intiharlar olur. Bununla bağlı Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi dekabrın 28-də dəyirmi masa keçirdi. Orda bütün hüquq müdafiəçiləri və qadın təşkilatları yığışmışdı. Təkliflərimizi verdik ki, bu cür məsələlərin monitorinqini aparmaq lazımdır ki, kim cavabdehdir. İntiharlara səbəb doğrudan da daha çox sosial vəziyyətdirmi, yoxsa başqa dəyişikliklər var? Axıra qədər bunu araşdıran yoxdur ki, bu problemin kökündə nə durur. Psixoloq və hüquq müdafiəçilərindən ibarət qurum yaratmaq, birgə analiz aparılmalı, monitorinqlər keçirilməlidir. Bu işin axırına çıxmaq lazımdır ki, niyə intiharlar artır".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 1 (6616) 6 yanvar 2017

# Hasilatın azaldılması Azərbaycana nə fayda verəcək...

## Ekspertə görə, Azərbaycan neftinin həcmi aşağı düşsə də, qiymətin artması onu kompensasiya edəcək

**Ötən illə müqayisədə dünya birjaları 2017-ci ilə neftin nisbətən yüksək qiyməti ilə qədəm qoydu. Hazırda neftin bir barelinin qiyməti 50 dolların üzərindədir.**




OPEK və qeyri-OPEK ölkələrinin hasilatın dondurulması ilə bağlı razılıq əldə etməsi, iri neft hasilatçılarının istehsalı azaltması nefti bahalaşdıran əsas amildir. Dekabr ayında OPEC-ə üzv olan ölkələr gündəlik neft hasilatını 310 min barel azaldıb. Nigeriyanın hasilatla bağlı planlarının pozulması bu göstəriciyə bir qədər təsir edib. Afrika ölkəsi dekabrda gündəlik hasilatı 200 min barel azaldaraq 1,45 mln. barelə çatdırıb. Səudiyyə Ərəbistanı gündəlik hasilatı 50 min barel, Venesuela isə 40 min barel azaldıb.

Bu, neft hasil edən ölkələr üçün pozitiv bir proses olsa da, ancaq ötən gündən etibarən neft ucuzlaşmağa başlayıb. Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,11 dollar azalaraq 53,15 dollar təşkil edib.

ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri isə 0,16 dollar azalaraq 56,30 dollar olub. Belə ki, OPEK ölkələrinin hasilatın müəyyən olunmuş səviyyədə dondurulması ilə bağlı qərara əməl edəcəklərinə şübhələrin artması neftin ucuzlaşmasına səbəb olub.

Qeyd edək ki, dekabrın 10-da neft ixracatçısı olan ölkələrin Vyanada keçirilən toplantısında Rusiya və digər qeyri-OPEK ölkələri ilə yanaşı Azərbaycan da neft hasilatını azaltmaq qərarına qoşulmuş 11 ölkənin arasında olub. 11 ölkənin birlikdə ixtisar edəcəyi neft günə 558 min bareldir. Bu, başlanğıcda qoyulmuş hədəfdən - 600 min bareldən azdır. Bunun 300 min bareli Rusiyanın payına düşür.

Bəs görəsən, hasilatın azaldılması bir enerji ölkəsi kimi Azərbaycanın maraqlarına nə dərəcədə uyğundur? Bu bir tərəfdən neftin bahalaşmasına və gəlirlərin artmasına səbəb olduğu kimi, digər tərəfdən də hasilatın məhdudlaşmasına gətirib çıxarır.

Ekspertlər isə bildirirlər ki, Azərbaycanın bu qərara qoşulması simvolik xarakter daşıyır. Çünki Azərbaycanda neft hasilatı təbii səbəblərdən ilbəil azalır.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan mövcud hasilat imkanları ilə hasilatın azalması üst-üstə düşdüyü üçün bu qərara qoşuldu:** "Azərbaycanda hasilatın imkanları faktiki olaraq məhdudlaşdırılmayıb. Bizdə buna səbəb olan subyektiv faktor var. Bu mənada Azərbaycanı OPEK ölkələri ilə qarışdırmamalıyıq. Nəzərə alsaq ki, Azərbaycan 2016-cı ilin ortasında təqribən 840 min barel neft istehsal etmişdisə, bu, artıq dekabr ayının sonlarında 15 min barel azalmışdı. Burada obyektiv səbəblərdən hasilatın azalması prosesi gedir. Yanvar ayında hasilat 5 min barel də azalacaq. Oktyabr ayı ilə müqayisədə bizdə hasilatın azalması 20 min barelə çatacaq".

**Ekspertin sözlərinə görə, Azərbaycan belə bir öhdəlik götürsə də faktiki olaraq heç bir addım atmayacaq, təbii şərtlər səbəbindən hasilat nəzərdə tutulduğu qədər azalacaq:** "Azərbaycan dekabrın 10-da bu öhdəliyə imza atıb və orada 6 ay ərzində hasilatın 35 min barel azalması göstərilib. Reallıqda da Azərbaycanda hasilatın iyun ayına kimi 15 min barel aşağı düşməsi gözlənilir. O baxımdan bizdə obyektiv səbəblər üzündən hasilatın azalması prosesi gedir. Hökumətin proqnozlarına da baxsaq, cari il üçün ölkədə neft hasilatının təxminən 940 min ton azalması nəzərdə tutulub, bu isə sutkalıq 20 min barel azalma deməkdir".

**İlham Şaban vurğuladı ki, hasilatın azaldılmasının Azərbaycan üçün mənfi yox, müsbət tərəfləri var:** "Digər tərəfdən, neftin qiyməti dünya bazarında bir qədər yüksəlib. İlin ilk gününə neftin qiyməti 56 dollarla başlayıb. Bu çox yaşı qiymətdir. Nəzərə alsaq ki, ötən il yanvar ayında, il başlayanda dünya bazarında neftin bir barelinin qiyməti 40 dollardan aşağı idi. Yanvar ayının sonunda isə artıq neftin qiyməti 27 dollar idi. faktiki olaraq, neftin qiymətində iki dəfəyə yaxın artım var. Bu baxımdan da Azərbaycan neftinin həcmi aşağı düşsə də, qiymətin artması onu kompensasiya edir və gələn gəlir azalmır".

❑ **Nərgiz LİFTİYEVA**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# "Quş qripi" yenidən qayıdır

## Bəs Azərbaycanda bu virusla bağlı tədbirlər həyata keçirilirmi?

**"Quş qripi" yenidən dünyanın diqqət mərkəzindədir. Baxmayaraq ki, bir müddət bundan əvvəl bu xəstəliyin mövcud olmadığı barədə məlumatlar yayılmışdı. Bildirilirdi ki, hansısa beynəlxalq qurumlar öz anbarlarında yığılıb qalan ət məhsullarını bazara çıxarmaq üçün bu xəstəliyi məqsədli şəkildə "icad" edib. Yəni "ət mafiyası" insanları quş ətindən diksindirməyə çalışıb.**

Lakin bu gün dünyanın bir çox ölkələrindən "quş qripi" ilə bağlı həyəcanlı xəbərlər gəlməkdədir. Xüsusən də Qərb ölkələrində bu virus getdikcə yayılmağa başlayıb. Təkcə Fransanın dövlət orqanları hazırda ölkənin 3 regionunda "quş qripi" virusunun yayılmasının qarşısını almaq üçün 1 milyondan çox ördək və qazın məhv edilməsini planlaşdırır. Yaponiyada isə bu virusla əlaqədar bu yaxınlarda 90 min quş məhv edilib. Bundan əvvəl Hollandiyada "quş qripi" virusunun yayılmasının qarşısının alınması üçün 190 min ev ördəyi məhv edilib.

Ən təhlükəlisi isə odur ki, Azərbaycanla sərhəd olan Rusiya və İranda da "quş qripi" virusu aşkarlanıb. Belə ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (BEB) 24 noyabr və 9 dekabr tarixlərində yaydığı rəsmi məlumatlara görə, Rusiyanın Kalmıkya Respublikasının Yaşaltinski rayonunda iki məntəqədə və Həştərxan vilayətinin Xarabalinski rayonunda bir məntəqədə ev quşları arasında "quş qripi" (H5) xəstəliyinin yayılması barədə məlumat daxil olub.

İranda isə ötən il noyabrın sonlarında Tehranın Malard bölgəsində 4 quşçuluq təsərrüfatında ev quşları arasında adı çəkilən virus aşkarlanıb. Nəticədə həmin təsərrüfatda 513 mindən çox toyuq məhv edilib.

Bəs sərhədlərində yayılan "quş qripi" virusu ilə bağlı ölkəmizdə zəruri tədbirlər həyata keçirilirmi? Virusla bağlı risk zonasına daxil olan ölkələrdən Azərbaycana quş və quşçuluq məhsullarına məhdudiyyət varmı?

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat xidmətinin rəhbəri, Yolçu Xanvəli suallarımıza belə cavab verdi:** "Bəli, qeyd etdiyiniz kimi təxminən noyabrın sonlarında İranda, dekabrın ortalarında isə Rusiyada bu xəstəliyik qeydə alındı. Bununla bağlı həm İran, həm də Rusiyanın Həştərxan və digər vilayətləri də daxil olmaqla, oradan quş ətinin gətirilməsinə məhdudiyyət tətbiq etmişik. Həmin məhdudiyyət bu gün də öz qüvvəsində qalmaqdadır. Eləcə də Avropa ölkələrindən. Bu məsələ daim dövlət baytarlıq xidmətinin mərkəzinin diqqətindədir, daim məlumatlar alınır. Həmin məlumatlar əsasında iş adamlarına hansı ölkədə vəziyyət stabildirsə, oradan quş əti və quş əti məhsullarının gətirilməsi məsləhət bilinir.

Keçən il virusla bağlı 4 dəfə monitorinq keçirilib. Onun ikisi yaz mövsümündə, aprel-may aylarında, ikisi də payız mövsümündə, noyabr-dekabr aylarında baş tutub. Həmin monitorinqlər zamanı həm çöl, həm də ev quşlarından götürülən qan və patoeloji materiallarda bu xəstəliyin daşıyıcıları qeydə alınmayıb".

**Qurum rəsmisi onu da qeyd etdi ki, mütəmadi olaraq iş adamlarına və vətəndaşlara zəruri xəbərdarlıqlar edilir:**

"Təkcə "quş qripi" deyil, qış mövsümündə yarana bilən xəstəliklər ilə əlaqədar quşların qapalı vəziyyətdə saxlanılması, hər hansı bir narahatlıq olarsa yerli və ya dövlət baytarlıq qurumuna vaxtında məlumat verilməsi tövsiyə edilir, tapşırılır. Hələ ki ölkəmizdə epizootik vəziyyət stabildir və bu stabilliyə nəzarət olunur".

Xatırladaq ki, təkcə 2003-cü ildə dünyada 170 nəfər "quş qripi" xəstəliyindən tələf olub. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının məlumatında bildirilir.

❑ **Xalidə GƏRAY**

## Elan

**Sarıyev Elxan Ələsgər oğluna ADİU-dan verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Nəsirzadə Aydın Etibar oğluna məxsus Bilgəh qəsəbəsi, 21 saylı bağ evinin qeydiyyat vəsiqəsi,(seriya BM 001261 ) itdiyinə görə etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 1 (6615) 6 yanvar 2017




Cümə söhbətləri

# Nazı çəkilməli Odur, amma O, bizim nazımızı çəkir...

## Əgər insanlar Allahın onlara olan məhəbbətini bilsələr...

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Bismilləhir-Rahmənir-Rahim!**
**İnsan həyatında çətinliklər, müşküllər, problemlər təbii bir haldır. İradəvi, seçimli varlığıq, təbiidir ki, Allah bəndəsi kimi yaşamaq istəsək, Allah razı olduğu kimi yaşamaq istəsək müəyyən çətinliklərimiz, problemlərimiz, müşküllərimiz qarşıya çıxacaq. İçimizdə olan istedadlar, qabiliyyətlər əslində o zaman üzə çıxa bilir. Bu halda bəzi hallar olur ki, büdrəyirik, səhv edirik, yanlışlara yol veririk, günah edirik. Rəbbimiz deyir ki, o bəndələrimə deyin ki, o halda özlərini itirməsinlər, naümid olmasınlar. Rəbbimiz bizi çox sevir, fövqəl dərəcədə sevir...**

Bizə bunu unutdurublar. Bizim gündəlik həyatımızda ən çox unutdurulan məsələlərdən biri məhz budur ki, Allah Təala bizi fövqəl dərəcədə sevir.

### Allah bəndələrini nə qədər sevir?

Bir nəfər Həzrət Peyğəmbərin (s) yanına uzaqdan gəlirmiş. Yolda görür ki, bir neçə quş balaları var. Bunları boğçasına yığır, atır çiyninə, deyir ki, bunları Peyğəmbərə (s) aparıb hədiyyə edərəm. Hərəkət edəndə görür ki, o, hansı tərəfə gedirsə, o quş balalarının anası ardınca gəlir. Açır boğçanı, o da gəlib boğçanın içərisinə daxil olur. Bu halda boğçanı yığır və Peyğəmbərin (s) yanına gəlir. Peyğəmbərimizin (s) hüzuruna çatandan sonra boğçanı açır, görürlər ki, bir neçə quş balasıdır, bir də analarıdır. Deyir, ya Peyğəmbər (s), mən uzaqdan gəlirəm, yolda da belə bir hadisə oldu. Peyğəmbər (s) o mənzərəni, səhnəni gördü, halı dəyişdi, mütəhəvvil oldu. Allahın bəndələrinə olan eşqi ilə bağlı çox mühüm mətləbləri buyurur: **“Bu quş balalarını nə qədər çox istəyir. Allah Təalanın bəndələrinə və yaratdıqlarına məhəbbəti bu quşun balalarına olan məhəbbətindən yüz mərtəbə üstündür”.**

Allah Təalanın yaratdığı hər bir bəndə hərəsi bir halda, bir durumda, bir tərəfdədir. Allah Təalanın isə nəzəri bəndələrində, yaratdıqlarındadır. Yarananın yaranana, yaranmışın yaranmışa olan məhəbbəti elə olur ki, çox yuxarı dərəcəli olur. Amma Allah Təala Özü Yaradan, Xaliq olduğundan, gör yaratdıqlarına nə qədər ali məhəbbəti, sevgisi var.

### Allah Öz günahkar bəndələrinə necə müraciət edir?

Allah Təala Qurani-Kərimdə “Zumər” surəsinin 53-cü ayəsində buyurur: **“De: ”Ey Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları (hətta şirki) bağışlayır. Çünki bağışlayan və mehriban Odur!""**

Allah Təala əziz Peyğəmbərinə (s) buyurur ki, Onun eşqini, məhəbbətini, rəhmətini, bəndələrinə olan yanaşmasını çatdırsın. Kimə çatdırsın? Hər birimizə. Allah Təala hər birimizə müraciət edir. Mənə, sənə, ona... Büdrəyən hər bir kəsə müraciət edir. Allah hüzurunda insan büdrəyir, səhv, xəta, yanlışlıq edir. İstəyir ki düzəlsin, amma düzələ bilmir. Özünü qaydaya salmaq istəyir, amma bacarmır. Daha yaxşı tərəfə getmək istəyir, çox vaxt büdrəyir, alınmır.

### Nazı çəkilməli Odur, amma O, bizim nazımızı çəkir

Allah Təala Həzrət Musaya (ə) buyurur: “Ey Mənim bəndəm! Sənin Mənim üzərimdə olan haqqına görə səni sevirəm. İndi ki, belədir, Mənim sənin üzərində olan haqqıma görə, sən də Məni sev”. Allah Təala bəyan edir ki, ey Mənim əzizim, sənin Mənim üzərimdə olan haqqına görə, səni sevirəm. Sən də Mənim sənin üzərində olan haqqıma görə Məni sev. Əxlaq ustadlarından biri buyurur ki, bu söz, əhli üçün olduqca böyük bir sözdür. Bir kəs bunun əhli olsa, bu mövzunu başa düşsə, söhbətin nədən getdiyini anlasa, olduqca böyük bir sözdür. Allaha Təala Özünün bizi nə qədər sevdiyini bizə ilk növbədə çatdırır. Bunu çatdıraraq, eyni zamanda bizim də öhdəliyimizdən xəbər verir. Onun bir Yaradan olaraq bizim üzərimizdə olan haqqına görə Onu sevməyə çağırır.

Əxlaq ustadları buyururlar ki, Allah Təala mütləq şəkildə ehtiyacsızdır. Bizə heç bir ehtiyacı yoxdur. Əgər naz etməli kimsə varsa, o, Allahdır. Allahın bizdən heç bir asılılığı, heç bir ehtiyacı yoxdur. Əgər kiminsə nazını çəkməli biri varsa, o, bizik. Bizik ki, Yaradanın, Rəbbimizin nazını çəkməliyik. Naz etməli odur, naz çəkməli varlıqlar da bizik.

Amma Allah əksinə edir. Bir halda ki, biz ehtiyaclıyıq, biz asılıyıq, biz başdan-ayağa ehtiyac içərisindəyik, amma O, bizim nazımızı çəkir, nəvaziş edir. Bu, Allahın məhəbbətinin, eşqinin təzahürlərindəndir. Biz bunu unutmuşuq ki, Allah Təala bizi sevir. Adam bunu hiss etməlidir ki, bizi sevən bir Rəbbimiz var. Bizi hər halımızda, vəziyyətimizdə sevir.

### Əgər insanlar Allahın onlara olan məhəbbətini bilsələr...

“Hədisi-Qüds”də yazılır ki, Allah Təala buyurur: **“Əgər Mənə arxa çevirən bəndələrim bilsələr ki, nə qədər onlara şövqüm var, nə qədər onlara eşqim var, nə qədər onların arzusundayam - şövqdən, eşqdən ölərlər”.** Allah Təala bəyan edir ki, əgər Ondan üz çevirmiş bəndələr Allahın onlara olan məhəbbətindən, eşqinin həddindən xəbərdar olsalar, bilsələr - o bilməkliyin nəticəsində yaranan şövqdən, eşqdən ölərlər. O qədər təsirlənərlər ki, buna dözə bilməzlər.

Firon (lən) həyatının son anlarında Həzrət Musaya (ə) yalvarır, Həzrət Musa (ə) cavab vermir. Allah Təala Həzrət Musaya (ə) buyurur: **“Musa, sən Firona cavab vermədin, çünki sən onun xaliqi deyildin. Əgər o son vəziyyətlərində Məni çağırsaydı, mənə yalvarsaydı, əlindən tutardım və fəryadına çatardım”.** Allah - bütün yaradılmışların yaradanıdır. Hətta günahkarların belə yaradanıdır. Bütün yaratdıqlarına məhəbbəti var.

İnsan öz mövcudiyyətinə, halına bu cür nəzər salmalıdır. Hətta əxlaq ustadları deyirlər ki, insan bunu dilinə gətirməlidir. Dilə gətirsə, ruhiyyəsinə təsir qoyar. Özü-özünə bunu deməli, təlqin etməli, xatırlamalıdır ki, Allah onu sevir. Sevir ki, yaradıb. Dilə gətirsək və fərqinə varsaq, bu sevgini hiss etməyə başlayarıq.

Bizləri bundan məhrum ediblər. Həyatımızda olan bütün digər hər bir şey haşiyədir. İnsan bilsə ki, onu sevən bir Allahı var, bir Rəbbi var - büdrəyəndə qalxar və yenidən onu sevənə tərəf gedər. Günah edəndə tövbə edər, yenidən Yaradanına dönər.

### Xoşbəxtlik Allahın insanlara olan sevgisini bilməklə başlar

Əslində xoşbəxtlik də elə bundadır. İnsan o zaman xoşbəxt ola bilər ki, onu sevən Yaradanının olduğunu hər zaman xatırlasın. Depressiyaların, sıxıntıların da, bir çox cinayətlərin də kökündə duran elə budur ki, insan Allahın onu sevməsi həqiqətini unudub. İnancımız, İslam dinimiz insanı xoşbəxt etmək üçün, xoşbəxtliyə çatdırmaq üçün bütün potensiallara malikdir. Amma bu xoşbəxtlik anlayışının içərisində yalnız ötəri, müvəqqəti, bu dünya ilə bağlı olan xoşbəxtlik yoxdur, əsas etibarilə əbədi xoşbəxtlikdən söhbət gedir. Buna görə də, inancımızın xoşbəxtlik anlayışı ötəri, burada bitən ləzzətlərlə məhdudlaşmır.

İnancımızda xoşbəxtliklə bağlı bir neçə tövsiyələr var. Onların ən əsası insanın öz nəfsinə nəzarət etməsi ilə bağlıdır. İslamın nəzərində xoşbəxt insanı fərqləndirən cəhətlərdən biri budur ki, öz nəfsinin hesabını çəkər, öz nəfsi, varlığı, durumu ilə hesab-kitabı olar. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Öz nəfsinin hesabatını aparan xoşbəxt olar”.** Əgər öz nəfsimizin hesabatını aparmasaq, bu, bədbəxtliyin bir təzahürüdür. Deməli, xoşbəxtliyin ciddi əlamətlərindən biri budur ki, həmin insan öz nəfsinin hesabatını aparar.

### Xoşbəxt olmaq istəyən gərək nəfsinə nəzarət etsin

Həzrət Əli (ə) başqa bir yerdə buyurur: **“Kim öz nəfsini islah etmək naminə ona əziyyətə salarsa - xoşbəxt olar. Amma kim öz nəfsini ləzzətlərə tapşırarsa - bədbəxt olar və Allahın dərgahından qovular”.** Xoşbəxt insan odur ki, öz nəfsinin islahı ilə məşğuldur. Elə ki, insan öz nəfsini ləzzətlərin arxasınca getməyə buraxdı, onun bədbəxtliyinin nümunələrindən biridir.

Gərək biz içərimizə bir nəzər salaq, baxaq görək günümüz, həyatımız yalnızca ləzzətlərin ardınca getməklə keçirsə, bizim bədbəxtliyimiz elə budur. Yox, əgər günümüz az da olsa nəfsimizə nəzarətlə keçirsə, deməli xoşbəxt olmamız üçün ümid yeri var.

### Xoşbəxtliyin əxlaqda təzahürü

Əxlaqi keyfiyyətlərlə bağlı da xoşbəxtliyin ciddi əlamətləri var. Bəzi keyfiyyətlər var ki, onların insanda olub-olmaması insanın xoşbxətliyinə də ciddi təsir qoyur. Bunların ən bariz nümunələri kin və paxıllıqdır. İslamın nəzərində mənfi əxlaqi keyfiyyətlərə malik olan insanda həqiqi xoşbəxtlik ola bilməz. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Qəlbdə kin və paxıllığın olması - bəndənin xoşbəxtliyidir”.** Əgər insan daxilinə nəzər salsa, diqqət etsə, görsə ki, heç kimə qarşı kini yoxdur, heç kimin paxıllığını çəkmir - bilər ki, Allahın ona inayəti olub və bu özü xoşbəxtliyin əlamətlərindəndir. Adamın daxilində heç kimə qarşı kini olmamalıdır. İnsanı məhv edən, dağıdan, hər mənada zay edən də bu iki ciddi xüsusiyyətdir - kin və paxıllıq. Əgər insanda olsa - insanı məhv edər, zay edər, hər mənada uçuruma aparar. Əgər insanın qəlbində bu iki halı olmasa, xoşbəxt olar.

Əgər özümüzdə bu xüsusiyyətləri tapsaq, onlarla mübarizə aparmalıyıq, onları aradan aparmağın yollarını tapmalıyıq.

### Xoşbəxtliyin ən işlək formulu

Xoşbəxtliyin ən ciddi formulu təqvadan keçir. İnancımızın yanaşması budur ki, insan nə qədər təqvalı olursa, o qədər də xoşbəxt olur. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Ən xoşbəxt insan - hamıdan təqvalı olandır”.** İnsan nə qədər təqvalı yaşayırsa, deməli o qədər xoşbəxtdir. Həyatını nə qədər təqva üzərində qurur, bütün əməl və davranışlarının ruhunu təqva təşkil edirsə, o qədər xoşbəxtdir. Çünki nə qədər ki, təqvalı yaşayıb aqibəti xoş olacaq - əbədi xoşbəxtliyə malik olacaq. Hətta bu dünyada da şərəfli bir varlıq kimi yaşayacaq.

İnsan nə qədər təqvadan uzaq yaşayacaqsa, deməli həm bu dünyada bədbəxt olacaq, həm də əbədi bədbəxtçiliyə giriftar olacaq. Bizim seçimimiz var. Heç kim də heç kimə görə bu dünyada olanlara görə cavab verməyəcək. Hər bir kəsin özünün fərdi seçimi var.

Biz səhər sübh yuxudan durandan, yuxuya gedənə qədər bütün gün ərzində seçimlər qarşısındayır: təqvalı davranaq və ya təqvasız davranaq. Danışığımız, baxışımız, oturuşumuz, duruşumuz, yediyimiz, içdiyimiz, qazandığımız, xərclədiyimiz, insanlarla münasibətimiz və s. - hər şeyimiz bu seçimdən asılıdır.

Bu təqvalı davranış bütün insanlar üçün mükəlləfiyyətdir. Mükəlləf insan təqvalı və ya təqvasız davrana bilər. Elə ki, təqvasız davranır - həyatını zay etməyə başlayır, həyatı əbəs, boş yerə xərclənir. Bu, bir bədbəxt həyatdır.

Amma təqvalı davransa, təqvalı yaşasa - həyatında həqiqi mənada xoşbəxtlik mövcud olar. Həm bu dünyada şərəfli yaşayar, həm də əbədi xoşbəxtliyə gedib çıxmış olar. Bizim bütün mövzularımızın həlli buradadır.

Təqvalı davranış üçün insanın qəzəblə, şəhvətlə, “mən”i ilə qərar verməməsi lazımdır. Təqvalı davranış mütləq şəkildə mərifətli, bilgili davranışdır. İnsan o zaman ki, ağlın işığını salmadan davranır, bilgisi olmayan formada davranır - təqvadan uzaqlaşır. Doğru seçimi həyata keçirmək üçün insanın bilməsi çox önəmlidir. Əgər bilməsə, seçim edə bilməz. Təqvalı davranış bilməni, seçməni zəruri edir.

Ən önəmli amil isə Allahı zikr etmək, Allahın yaratdığı hər bir bəndəsini nə qədər sevdiyini bilmək, xatırlamaqdır. Əgər biz bunu daim xatırlasaq, əlbəttə ki, təqvalı davranar və dünya və axirət xoşbxətliyinə çatmış olarıq.

**Allahım, bizlərə Sənə doğru həqiqi qayıdışı nəsib et!**

**Allahım, əbədi xoşbəxtlik yolunda bizləri sabitqədəm et!**

**Allahım, bizlərə hər zaman Sənin sevgini xatırlamağı nəsib et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 1 (6615) 6 yanvar 2017




## Gözəl qadın sədaqətsizdir?

Alimlər sübut edib ki, qadınlar bir kişi ilə birgə olmamışdan qabaq onun üzünün formasına fikir verməlidir. Belə ki, təkcə kişinin görünüşü onun etibarsız olub-olmadığını müəyyənləşdirə bilər. Avstraliyanın Araşdırma Mərkəzinin bir qrup alimi 34 kişi və 34 qadından ibarət qrupa onların tanımadığı insanların rəngli fotoşəkillərini göstəriblər. Daha sonra tədqiqatçılar əldə olunan nəticələri tədqiqatın personajlarının şəxsi həyatları ilə müqayisə ediblər və belə nəticəyə gəliblər ki, qadınlar həmin şəxslərdən kimin sadiq, kimin etibarsız olduğunu daha dəqiq müəyyən edə bilirlər. Bu zaman onlar öz fikirlərini hər bir kişinin nə dərəcədə cəsarətli görünməsi ilə əsaslandırıblar. Onlar bu keyfiyyətin həddindən çox olduğu şəxsləri eşq macəralarına daha meylli insan kimi qiymətləndiriblər.

Öz növbəsində, kişilər bu zaman qadının cazibədarlığını əsas götürərək nisbətən daha gözəl olanların vəfasız olduğu qənaətinə gəliblər. Alimlərin sözlərinə görə, nəticədə bu zaman kişilərin müqayisə reytinqi reallığa daha az uyğun gəlib.

# Əkizlər ayrı-ayrı illərdə doğuldular

Amerika Birləşmiş Ştatlarında əkizlər ayrı-ayrı illərdə dünyaya gəliblər. Belə ki, onlardan birincisi 2016-cı ilin sonunda, o biri isə 2017-ci ilin ilk dəqiqələrində doğulub. Onların dünyaya gəlmə vaxtları arasında 10 dəqiqə fərq olub. Lenta.ru saytının xəbərinə görə, əkizlər Arizona ştatındakı xəstəxanada dünyaya gəliblər. Birinci körpə - Soyer dekabrın 31-də, 23.51 radələrində, onun qardaşı Everett isə bacısından 10 dəqiqə sonra, yeni ilin ilk dəqiqəsində doğulub. Əkizlərin atası isə zarafatla deyib ki, uşaqlar artıq əkiz sayılmırlar. Birinci dünyaya gələn uşağı ikinci üzərində hər zaman böyük qardaş adası nümayiş etdirəcək.



Analoji hal bir il öncə San Dieqo ştatında da yaşanmışdı. Yerli xəstəxanada dünyaya gələn əkiz qızların dünyaya gəlmə vaxtları arasında 4 dəqiqə olub. Onlardan biri 31 dekabrda 12-yə qalmış 1 dəqiqə, o biri isə saat 1-ə işləmiş 3 dəqiqə dünyaya gəlib.

# "Şaxta baba yoxdur" deyən dirijoru işdən qovdular



İtalyan dirijor Cakoma Loprieno uşaqların Yeni il şousunda dediyi sözlərə görə işdən azad edilib. Belə ki, dirijor uşaqlara Şaxta babanın gerçək olmadığını deyib. Lenta.ru saytı xəbər verir ki, insident 29 dekabrda Parko della Musicada baş tutan teatr zamanı yaşanıb. Disney cizgi filmi "Soyuq ürək"in əsasında hazırlanan teatrda dirijoru özündən çıxaran isə tamaşa bitmədən insanların zalı tərk etməsi olub. Sonuncular qarderob növbəsində ləngiməmək üçün zalı vaxtından əvvəl tərk edirmişlər. Bu məqamdan qeyzlənən dirijor isə mikrofonu götürüb və belə elan verib: "Bütün hallarda Şaxta baba mövcud deyil". Bu açıqlama valideynlərin təəccübünə, uşaqların göz yaşına səbəb olub. Teatrın rəsmi bəyanatında isə bütün valideynlərdən üzr istənilib. Təşkilatçılar bəyan ediblər ki, dirijorun bu hərəkətinə görə şoka düşüblər: "Onun dedikləri teatrın rəsmi mövqeyini əks etdirmir".

Loprienonu isə başqa bir dirijor əvəz edib. Amma uşaqları ağladan dirijorun işdən həmişəlik azad edilib-edilməməsi sual doğuran məqamdır. Çünki yerli qəzetlər iddia edir ki, teatr Loprieno kimi dirijorun bu səhvini bağışlaya bilər. "The Telegraph" isə yazıb ki, "möhtəşəm sürprizlərlə dolu şou"ya bilet qiymətləri 30-48 avro arasında dəyişir.

## Qoroskop




**QOÇ** - Ümumi ovqatınız yüksək olduğundan xırda gərginliklər gözünüzə görünməyəcək. Amma mistik düşüncələrə də qapılmaq olmaz. Başınızın üstündə yalnız Tanrı qüdrətini hiss edin.

**BUĞA** - Ağıllı addımlarınız ətrafda hər şeyin xeyrinizə dəyişəcəyinə təkan verməkdədir. Bu isə gün ərzində fəaliyyətlə bağlı uğurlarınızın start götürməsinə imkan yaradacaq.

**ƏKİZLƏR** - Daxili gərginliyiniz günorta saatlarından etibarən aradan qalxmağa başlayacaq. Bu isə nəzərdə tutduğunuz planların icrasını sürətləndirəcək. Amma sözünüzün ağası olmağı da bacarın.

**XƏRÇƏNG** - Astroloji göstəricilərə görə, qarşınızda anlaşılmaz bir gün dayanıb. Odur ki, bu tarixdə qeyri-ənənəvi işlərə aludə olmamalı, sabitliyinizi təmin etməlisiniz. Səhhətinizi qoruyun.

**ŞİR** - Nahara qədərki süstlüyünüzü nəzərə almasaq, qalan müddətdə işləriniz qaydasında gedəcək. İndi siz puldan daha çox münasibətləri tənzimləməyə səy göstərməlisiniz. Digər işlər düzələndir.

**QIZ** - Bu gün özünüzü olduqca ciddi aparmalısınız. Çünki istənilən xırda zarafat münaqişəyə səbəb ola bilər. İmkanlı adamlar vasitəsilə problemlərinizi aradan qaldırmağa çalışın.

**TƏRƏZİ** - Astroloji göstəricilər qismən gərgin gün yaşayacağınızı bəyan edir. Hər hansı mübahisəyə, riskli iş və sövdələşmələrə "yox" deməlisiniz. Günorta saatlarında xətakar insanlardan uzaq olun.

**ƏQRƏB** - Bəxtinizə təzadlı gün çıxıb. Belə ki, nahara qədər qarşılaşacağınız uğurlar sonrakı müddətdə tamamilə əks istiqamətə yönələ bilər. Odur ki, yalnız günün birinci yarısında aktiv olmalısınız.

**OXATAN** - Bürcünüzdə bərqərar olan mənfi yüklü Ay sizə ümumi gərginlik vəd edir. Bu isə hər addımda daha da ehtiyatlı davranmağınızı tələb edir. Yeni təkliflərə razılıq verməyin.

**OĞLAQ** - Qarşınızda duran vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. İndi nüfuzunuzu artırmaq üçün imkanlarınız genişdir. İşdən sonra yaxınlıqda yaşayan ünvanlara qonaq getmək olar.

**SUTÖKƏN** - Yaxşı olar ki, bütün vacib işlərinizi bu gün başa çatdırasınız. Ən azı ona görə ki, sonrakı günlərdə buna imkan tapmayacaqsınız. Özünüzü hər addımda bədxahlardan qorumağa çalışın.

**BALIQLAR** - Əgər maddi vəziyyətiniz imkan vermirsə, uzaq yola çıxmaq planınızı təxirə salın. Yoxsa səfər boyu gərginlik sizdən əl çəkməyəcək. Şəxsi büdcənizin qayğısına qalmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İndoneziyalı kişi 146 yaşını qeyd etdi



İndoneziyalı Saparman Sodimeco planetin ən yaşlı sakini sayılır. O, 31 dekabrda 146 yaşını qeyd edib. Uzunömürlü kişinin sənədlərində qeyd olunub ki, o, 1870-ci ilin 31 dekabrında dünyaya gəlib. O, öz ad gününü qohumları ilə birgə Yava adasında qeyd edib. Artan yaşına baxmayaraq, kişi sərbəst hərəkət edə bilir. Lenta.ru saytının xəbərinə görə, Sodimeco 9 bacı-qardaşını basdırıb, bundan başqa, dörd arvadı o dünyaya yola salıb. Maraqlı burasındadır ki, Sodimeconun övladlarından da sağ qalan yoxdur. Amma o, nəvə və kötücələri ilə əhatə olunub.

Rəsmi şəkildə dünyanın ən yaşlı insanı İsrail vətəndaşı İsrail Kristal sayılır. Belə ki, onun 113 yaşı var və rəsmi sənədlərdə də bu, təsdiqlənib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100